QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 053 (5525) 22 **mart** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**




# İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq

*İlham Əliyev: “Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”*



Səh 2

## İlhamla İrəli!



4

**“Müasir Azərbaycanda qadınlarımız həyatımızın müxtəlif sahələrində çox fəaldırlar”**



3

**Əli Həsənov: “İnsanın mahiyyəti nədirsə, davranış və leksikonu da elədir...”**



5

**“Azərbaycan” qəzetində prezidentliyə namizədlərin ödənişsiz təşviqat ardıcıllığını müəyyənləşdirən püşkatma keçirilib**



5

**Balkan ölkələrində təhsil alan tələbə-gənclər: “Siz bütün azərbaycanlıların sevimlisi və liderisiniz”**



9

10

**“Siyasi mübarizəni şər-böhtan səviyyəsinə endirmək anti-Azərbaycan mərkəzlərin yeni taktikası kimi müəyyənləşdirilib”**



13

**“Xaricdə oturub Azərbaycana qarşı zərərli fəaliyyətlə məşğul olmaq nakişilikdir”**



16

**“Real” bu qapıçıya görə 60 milyon avro ödəməyə razıdır**



# İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq

## *İlham Əliyev: “Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”*



### Rəsmi xronika

Prezident İlham Əliyev martın 21-də “Lənkəran, Lerik və Astara rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Lənkəran, Lerik və Astara rayonlarında cəmi 860 şagird yerlik modul tipli 16 məktəbin quraşdırılması məqsədilə Prezidentin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 milyon 942 min manatı Təhsil Nazirliyinə ayrılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunması, bunun ardınca “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncamın imzalanması, məhz tariximizin hər bir səhifəsinə ətraflı diqqət yönəltməyə geniş imkanlar açır. Tarixə nəzər salsaq, görərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Ölkə Prezidenti İlham Əliyevin məlum Sərəncamında da qeyd olunur ki, yalnız 80 il sonra - 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilmişdir.

Sənəddə vurğulanırdı ki, Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır və təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Məhz Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında “Erməni vilayəti” adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına “bəraət qazandırmaq məqsədilə” erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırılmışdır.

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik “Böyük Ermənistan” ideyasını gerçəkləşdirmək məqsədilə azərbaycanlılara və türklərə qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçiriblər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış və özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Elə o zamanlardan ermənilərə göstərilən dəstəklər bu günə qədər davam etməkdədir. 1988-ci ildə ermənilərin torpaq iddialarının yenidən baş qaldırması nəticəsində yaranan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin bu günədək uzanmasında dünyanın ikili siyasəti və ermənilərin başına çəkilən sığallar əsas rol oynamaqdadır.

1992-ci ildə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə yaradılan ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri - ABŞ, Fransa və Rusiya, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu xatırlatmanı ona görə edirik ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə erməni işğalçılarının Azərbaycan ərazilərini qeyd-şərtsiz azad etmələri tələb edilsə də, ermənilər bu günə qədər bu qərar və qətnamələrə məhəl qoymur. Yəni himayədarlarından aldıqları dəstəklər onlarda böyük ruh yüksəkliyi yaradır və daha böyük iddialarla çıxış etmələrinə rəvac verir. Məhz onlar bu dəstəkdən qaynaqlanaraq, illərdir beynəlxalq ictimaiyyətdə özləri barədə “yazıq, məzlum, əzilən və döyülən” millət, azərbaycanlıların isə mənfi obrazını yaradıblar. O da bəllidir ki, ABŞ Konqresi 1992-ci ildə Azərbaycana qarşı ədalətsiz “907-ci düzəliş”i tətbiq etmişdi. Yalnız 2001-ci ildə ABŞ-da baş verən terror aktı rəsmi Vaşinqtonu bu qərarın ədalətsizliyi barədə düşünməyə və onun fəaliyyətini bir illik dondurması barədə qərar qəbul etməyə sövq etdi. Göründüyü kimi, dünyanı idarə edən iri dövlətlər bu və ya digər ölkələrə qarşı atılan addımlara, eyni zamanda, baş verən hadisələrə o zaman düzgün dəyər verməyə çalışırlar ki, özləri həmin hadisəni yaşayır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə yaşanan Xocalı soyqırımı təbii ki, ermənilərin əvvəlki cinayətlərinin cəzasızlığından yaranan soyqırımıdır. Bu gün Azərbaycan dövləti bütün səylərini bu faciənin soyqırımı kimi tanıdılmasına yönəldib. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması və şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq, bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınıb.

Bunlara göz yummaq, ədalət prinsipini arxa plana keçirib, öz maraqlarına uyğun mövqe nümayiş etdirmək beynəlxalq hüququn norma və prinsiplərinə ziddir. Bu prinsipi yenə də təkrarən xatırlatmaq istərdik ki, hər bir ölkənin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı BMT-nin sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir. Dövlətimizin başçısı İlham Əliyev BMT Baş Assambleyasının 72-ci sessiyasında bir daha bəyan etmişdi: “Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə, 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır”.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayında Dağlıq Qarabağ probleminin həlli istiqamətində atılan addımlardan bəhs edərkən, eyni zamanda, bu məsələyə də diqqət yönəltmişdir: “Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir və sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər və təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”.

***“Səs” Analitik Qrupu***

# “Müasir Azərbaycanda qadınlarımız həyatımızın müxtəlif sahələrində çox fəaldırlar”

*Birinci vitse-prezident Mehriban Əliyeva diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb*





**Martın 20-də - Novruz bayramı günündə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakıda diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşüb. AZƏRTAC xəbər verir ki, ölkəmizdə akkreditə olunan diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşməkdən şad olduğunu bildirən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dedi:**

-Əziz qonaqlar.

Əziz dostlar.

Mən hamınızı salamlayıram və Novruz bayramı, həmçinin fürsətdən istifadə edərək bu yaxınlarda qeyd olunan Beynəlxalq Qadınlar Günü münasibətilə Sizə təbriklərimi çatdırıram. Novruz Azərbaycanda ən qədim və sevimli bayramlardan biridir. Novruz yazın rəmzidir və mən sizin hər birinizə və ailələrinizə cansağlığı, böyük xoşbəxtlik və sevgi arzulamaq istərdim. Mən, həmçinin sizin burada - Azərbaycanda təmsil etdiyiniz ölkələrə hörmətimi ifadə etmək, xalqlarınıza sülh və əmin-amanlıq arzu etmək istərdim. Mən “HOMS Qrupu Səfir Xanımları Cəmiyyəti”nin fəaliyyətini yüksək qiymətləndirirəm. Sizin şəxsi səviyyədə fəaliyyətiniz ölkələrimiz arasında əlaqələrin inkişafına böyük töhfə verir. Əziz dostlar, Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin, millətlərin və dinlərin nümayəndələrinin sülh və harmoniya içərisində yaşadığı məkan olub. Bu gün müasir Azərbaycanda biz fəxr edirik ki, ölkəmiz dünyanın mədəniyyətlərarası dialoq və multikulturalizm mərkəzlərindən biri kimi yaxşı tanınır. Bu il bizim üçün çox əlamətdar bir ildir. Yüz il bundan əvvəl Azərbaycan xalqı müsəlman dünyasında ilk parlamentli demokratik respublikanın əsasını qoydu. Əfsuslar olsun ki, o, cəmi 23 ay yaşadı. Lakin Azərbaycan Xalq Cümhuriyyəti bir sıra böyük əhəmiyyət kəsb edən qərarlar, o cümlədən qadınlara səs vermək hüququnun verilməsi ilə bağlı qərar qəbul etdi. Bu gün müasir Azərbaycanda biz dövlətçilik, demokratiya və hüquqların bərabərliyi ənənələrini qoruyub saxlayırıq. Müasir Azərbaycanda qadınlarımız həyatımızın müxtəlif sahələrində çox fəaldırlar. Onlar siyasi, iqtisadi və sosial sahələrdə fəaldırlar. Müstəqilliyimizin bərpasından sonra üzləşdiyimiz çətinliklərə baxmayaraq, Azərbaycan öz sürətli inkişafını təmin edə bildi. Biz siyasi, iqtisadi və sosial sahələrdə bir çox mühüm addımlar atmışıq. Bu gün Azərbaycan təkcə region üçün deyil, həm də Avropa üçün əhəmiyyət kəsb edən infrastruktur, enerji və nəqliyyat sahələrində bir çox genişmiqyaslı layihələr həyata keçirir. Azərbaycan Şərq və Qərb sivilizasiyalarının kəsişməsində yerləşir və Azərbaycan həm Avropa Şurası, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan az sayda ölkələrdən biridir.

Əziz dostlar, bu gün əfsuslar ki, bütün dünyada çox sayda münaqişə, müharibə, yüz minlərlə günahsız insanın öldürülməsinin şahidi olduğumuz bir dövrdə sülh və əmin-amanlığı təmin etməyin yolunun dialoq və qarşılıqlı hörmət olduğunu nümayiş etdirmək çox vacibdir. Buna görə, Azərbaycan qarşılıqlı anlaşma və dialoq üçün beynəlxalq platformanın yaradılmasına bu qədər sadiqdir. Mən bir daha sizin hamınıza humanitar sahədə fəal mövqeyinizə, xeyriyyəçilik sahəsində fəaliyyətinizə görə minnətdarlığımı ifadə etmək istərdim. Mən tam əminəm ki, mehribanlıq və səxavətlilik dünyamızı daha da yaxşılaşdıra bilər. Mən inanıram ki, humanizm, mərhəmət və sevgi bizim həyatımızı daha da xoşbəxt edir. Mən bir daha sizə dərin təşəkkür edirəm. Sizin hamınızı salamlamağa çox şadam. Mən Novruz bayramı münasibətilə bir daha təbriklərimi çatdırıram. Bir daha sizin hər birinizə və ailələrinizə xoşbəxtlik arzulamaq istərdim və ümid edirəm ki, görüşümüzdən, Azərbaycan mətbəxi və gözəl Azərbaycan musiqisindən zövq alacaqsınız. Xoş gəlmisiniz. Novruz bayramınız mübarək!

Görüşdə Fələstin Dövləti səfirinin xanımı Rohayu Binti KUTEP Bakıdakı diplomatik missiya rəhbərlərinin həyat yoldaşlarının adından çıxış edərək, Novruz bayramı münasibətilə Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik etmək imkanının onlar üçün böyük şərəf olduğunu bildirdi. Mehriban Əliyevanın diplomatik missiya rəhbərlərinin həyat yoldaşları ilə görüşmək təşəbbüsünü yüksək dəyərləndirən Rohayu Binti Kutep Novruz bayramının insanları sülhə və həmrəyliyə səslədiyini vurğuladı. Qeyd etdi ki, bu bayram dostluğu təcəssüm etdirərək, yardıma ehtiyacı olanlara dəstək verməyi təlqin edir.

Azərbaycan haqqında fikirlərini bölüşən Fələstin Dövləti səfirinin xanımı ölkəmizin gənc müasir dövlət olduğunu dedi. Bildirdi ki, Azərbaycan həm gələcəyə istiqamətlənən ölkədir, həm də minillərlə yaşı olan tarixini, zəngin irsini və mədəniyyətini qoruyub saxlayır. Rohayu Binti Kutep Azərbaycanda hökm sürən tolerantlığı yüksək dəyərləndirdi, burada müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh şəraitində yaşadığını vurğuladı. Fələstin Dövləti səfirinin xanımı dost Azərbaycan xalqına sülh, əmin-amanlıq və inkişaf arzuladı, Novruz bayramı münasibətilə bir daha təbriklərini çatdırdı.

Sonda Birinci vitse-prezident Mehriban Əliyeva əməkdaşlıq, o cümlədən humanitar sahədə əlaqələrə bir daha toxunaraq dedi:

-Əminəm ki, daha güclü əməkdaşlıq qurmaq üçün bizim xüsusilə humanitar sahədə böyük potensialımız var. Çünki mən sizin xeyriyyəçilik fəaliyyətinizdən məlumatlıyam. Mən hər zaman onu dəstəkləyirəm. Qeyd etdiyim kimi, həqiqətən də inanıram, bu, elə bir sahə, elə bir fəaliyyətdir ki, çox şeyi dəyişə, çox problemlərin həllinə kömək edə bilər. Mən hər zaman sizin humanitar sahədə, xeyriyyəçilik sahəsində fəaliyyətinizi dəstəkləməyə hazıram. Mən hər zaman sizi görməyə, sizinlə görüşməyə çox şadam. Novruz bayramı münasibətilə təbriklərimi, ən xoş arzularımı çatdırıram. Böyük xoşbəxtlik və sevgi arzulayıram. Sağ olun.



Görüşün sonunda xatirə şəkli çəkdirildi. Diplomatik missiya rəhbərlərinin həyat yoldaşlarına Novruz sovqatları təqdim olundu.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
22 mart 2018-ci il

# İlhamla İrəli!

## *Yeni Azərbaycan Partiyası izdihamlı görüş-mitinq keçirib*









***Martın 21-də prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayonunda izdihamlı görüş-mitinq keçirib. SİA-nın verdiyi məlumata görə, minlərlə insanın iştirak etdiyi tədbirin aparıcıları öncə prezident seçkiləri haqqında məlumat verib və Yeni Azərbaycan Partiyası tərəfindən partiyanın Sədri, dövlət başçısı İlham Əliyevin prezidentliyə namizədliyinin irəli sürüldüyünü vurğulayıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 15 ildə böyük inkişaf yolu keçib.***

Mitinqdə çıxış edən Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi, prezidentliyə namizəd İlham Əliyevin səlahiyyətli nümayəndəsi Əli Əhmədov öncə Novruz bayramı münasibətilə təbriklərini çatdırıb və ən xoş arzularını bildirib. Cənab İlham Əliyevin növbəti dəfə prezidentliyə namizədliyinin irəli sürülməsinin də xalqımız tərəfindən bayram əhval-ruhiyyəsi ilə qarşılandığını deyən Əli Əhmədovun sözlərinə görə, Yen Azərbaycan Partiyası cənab İlham Əliyevin seçki kampaniyasını uğurla həyata keçirir: “Biz növbəti dəfə “İlhamla İrəli!” şüarı ilə seçki kampaniyasına başlamışıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daim irəliləyib. Azərbaycan hazırda regionun lider dövlətidir, ölkəmizin beynəlxalq aləmdə mövqeyi xeyli güclənib. Azərbaycan iqtisadiyyatının inkişaf etməsi, müasirləşməsi ölkəmizin həm regionda, həm də dünyada mövqeyini ciddi şəkildə möhkəmləndirib. Azərbaycan neçə ildir ki, bölgənin lideri statusunu daşıyır və bu statusu heç zaman əldən verməyəcək. Azərbaycanın beynəlxalq aləmdə də nüfuzu güclənməkdədir. Bu gün Azərbaycanda təhlükəsizlik və sabitlik hökm sürür. Azərbaycan sabitlik və inkişaf baxımından dünyada nümunə olacaq ölkələrdən biridir. Təbii ki, təhlükəsizliyin təmin olunmasına və qorunmasına Prezidentimiz İlham Əliyevlə xalqın sarsılmaz birliyi mühüm rol oynayır”.

YAP Sədrinin müavini qeyd edib ki, ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib, yeniləşib. Bu dövrdə əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib və bu yüksəlişi hər bir vətəndaş öz həyatında hiss etməkdədir. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin nəticəsidir. “Ona görə də, biz yenə də “İlhamla İrəli!” deyərək seçki kampaniyasını uğurla aparırıq. Cənab İlham Əliyev 15 il ərzində Azərbaycan üçün möhtəşəm nailiyyətlərə imza atıb. Bu səbəbdən də, İlham Əliyev yüksəliş, inkişaf, tərəqqi deməkdir. O, hər bir azərbaycanlının firavanlığı üçün çalışır. Buna görə də, bütün xalqımız İlham Əliyevi sevir, Onu dəstəkləyir”.

Milli Qəhrəman, şəhid Samir Xasıyevin anası Gülzar Xasıyeva mitinqdə çıxış edərək Azərbaycanın xoşbəxt gələcəyinin Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu deyib. “Mənim oğlum 4 il torpaqlarımızın işğaldan azad olunması üçün döyüşüb. İki dəfə - 1994-cü il və 1995-ci ildə dövlət çevrilişinin qarşısının alınmasında iştirak edib. 1995-ci ilin mart çevrilişinə cəhdin qarşısını alarkən şəhid oldu. Ümummilli liderimiz Heydər Əliyev oğluma Milli Qəhrəman adını verdi. Ulu Öndərimiz hər zəmana şəhid ailələrinə diqqət göstərirdi. Hazırda bu siyasəti Prezident İlham Əliyev davam etdirir. Biz hər zaman Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və biz belə bayramları həmin torpaqlarda qeyd edəcəyik”, - deyən, şəhid anası onu da bildirib ki, bu gün xaricdə yaşayan satqınlar ölkəmizə, onun rəhbərinə qarşı böhtan atmağa çalışırlar. “Amma onların cəhdləri heç bir nəticə verəməyəcək. Allah dövlətimizi, Prezidentimizi qorusun!”, deyən G.Xasıyeva seçiciləri aprelin 11-də fəal olmağa çağırıb. O deyib ki, xalqın seçimi cənab İlham Əliyevdir.

Daha sonra çıxış edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dünyada mövqeyinin möhkəmləndiyini söyləyib. Onun sözlərinə görə, bu gün ölkəmiz beynəlxalq təşkilatlarda aparıcı rol oynayırıq: “Biz fəxr edirik ki, gənc Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurası kimi mötəbər quruma üzv olub və bu təşkilata sədrlik edib. Bütün bunlar Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin dəmir iradəsinin məntiqi nəticəsidir”.

S.Seyidov deyib ki, Azərbaycan bu uğurlara Prezidentlə xalqın birliyi nəticəsində nail olub. “Biz bu birliyi qorumalıyıq. Bunun üçün də 11 aprel seçkilərində cənab İlham Əliyevə səs verməliyik. Prezident İlham Əliyevə səs verməklə biz Azərbaycanın uğurlu gələcəyinə səs vermiş oluruq”, - deyən, millət vəkili seçiciləri 11 aprel seçkilərində fəal iştirak etməyə çağırıb. Daha sonra tədbir tanınmış sənət adamlarının konsert proqramı ilə davam edib.

# Əli Həsənov: "İnsanın mahiyyəti nədirsə, davranış və leksikonu da elədir..."



***Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, şöbə müdiri Əli Həsənov facebook səhifəsində xarici ölkələrdə anti-Azərbaycan kampaniyası aparan bir qrup şəxs haqqında status paylaşıb. SİA həmin statusu təqdim edir:***

- Azərbaycan jurnalistlərinin VII qurultayındakı çıxışımda və facebook vasitəsilə bir həftə əvvəl paylaşdığım statusda xarici ölkələrdə məskunlaşmış bəzi soydaşlarımızı milli-mənəvi dəyərlərimizə, dövlət simvollarımıza hörmətlə yanaşmağa, yaşadıqları ölkələrin müsbət nümunələrini əxz edərək opponentlərinə qarşı yalan, şantaj, qeyri-etik və qeyri-əxlaqi davranış nümayiş etdirməməyə çağırmışdım. Məqsədim, bir tərəfdən, siyasi mübarizə meydanında son zamanlar bəhs olunan şəxslər tərəfindən başladılmış və getdikcə genişlənən qeyri-əxlaqi mübarizə üsullarını aradan qaldırmaq, digər tərəfdənsə, bu cür hərəkətlərin heç kimə şərəf gətirməyəcəyinə, qeyri-əxlaqi davranış sahiblərinin xalqın nifrətini qazanacaqlarına onları inandırmaq idi.

Mən hər bir insanın mahiyyətində və əxlaqında bir xeyir başlanğıcı olduğuna inanıram və inandırmaq istəyirəm ki, bu və ya digər yad təsirlər, şəxsi və ya siyasi uğursuzluqlar üzündən yaranmış hər hansı kinküdurət hissi azərbaycanlıların öz dövlətinə düşmən kəsilməsi üçün səbəb ola bilməz. Müraciətim yayılandan sonra daxili müxalifətin, xaricdəki diaspor fəallarının bu polemikaya qatılacağını və indiki qeyri-normal halın aradan qaldırılması yollarının müzakirə ediləcəyini gözləyirdim... Ancaq bu gün dərin təəssüf hissi ilə bildirmək məcburiyyətindəyəm ki, Azərbaycan dövlətinə, hakimiyyətə, ayrı-ayrı şəxslərə, o cümlədən də şəxsən ölkə Prezidentinə və onun köməkçisi kimi mənə qarşı çirkin kampaniya aparan həmin "insanlar" nəinki polemika mədəniyyətlərinin olmadığını, həm də tərbiyə və əxlaq normalarından çox-çox uzaq olduqlarını bir daha nümayiş etdirdilər...

Tam məsuliyyətimlə bəyan edirəm ki, cavabdeh olduğum sahədə çalışan şəxslərin heç biri və heç vaxt öz opponentlərinin şərəf və ləyaqətinə, milli-vətəndaş heysiyyatına toxuna biləcək leksikondan istifadə etməyiblər və belə hərəkətləri həmişə sərt formada qınayıblar. Biz həmişə istənilən şəxs, siyasi qurum və qüvvə ilə istənilən platformada sivil polemikaya açıq olmuşuq və bu gün də buna hazırıq. Görünür, mədəniyyət, əxlaq, tərbiyə və şərəf barədə anlayışları plintusdan da aşağı səviyyədə olan vidadi isgəndərli, isa sadıqov, elşad abdullayev kimilərdən qısa müddətdə möcüzəli transformasiya gözləmək əbəs imiş...

Bir də təkrar edirəm, insanlar təkcə bildikləri danışıq dilində deyil, eyni zamanda malik olduqları mədəni-mənəvi keyfiyyətlərin dili ilə danışırlar. İnsanın mahiyyəti nədirsə, davranış və leksikonu da elədir... Böyük Füzulinin təbirincə desək, "kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz".

Jurnalistlərin son qurultayında ifadə etdiyim fikri bir daha, bu dəfə ünvanlı şəkildə, mahiyyətcə düşük olanların diqqətinə çatdırıram: özünüzə rəva görmədiyinizi başqasına da etməyin! Ailəsinin şərəfini gözləyən hər bir şəxs başqasının ailəsini də təhqir etməz! Özünə rəva görmədiyi ədəbsiz ifadələri başqası barədə də işlətməz!

Əlbəttə, hazırda dünyanın bir parçası kimi, biz də virtual informasiya mühitində, azad internet və demokratiya şəraitində yaşayırıq. Siyasi mübarizə gedir və bundan sonra da davam edəcəkdir. Sosial şəbəkələrdən qaçmaq mümkün deyil və görünən budur ki, gələcəkdə də qaça bilməyəcəyik. Amma unutmaq olmaz ki, biz azərbaycanlıyıq, öz adət-ənənəmiz, əxlaq və şərəf ölçülərimiz var. Siyasi mübarizəni də həmin çərçivədə, cəmiyyətimizə, vətəndaşlarımıza utanc gətirməyəcək formada, milli-mənəvi və əxlaqi dəyərlərimizə uyğun şəkildə aparmalıyıq. Bu gün öz "siyasi mübarizəsini" söyüş və təhqir üzərində quranlar tutduqları yolun nə onların özlərinə, nə də ki, Azərbaycan cəmiyyətinə heç bir faydası olmadığını anlamalıdırlar. Beləlri başa düşməlidirlər ki, müxtəlif fərziyyələrni mənim və hakimiyyəti təmsil edən digər şəxslərin adına çıxmaqla, "trollar", "məqsədli təhqir" və s. bu kimi ifadələr ortaya atmaqla, heç kimə şərəf gətirməyən və sonu heç də yaxşı olmayan işə baş qoşurlar. Onlara bu ziyanlı əməllərdən əl çəkməyi tövsiyə edirəm.

Yenə də jurnalistlərin qurultayında ifadə etdiyim və bəziləri tərəfindən təhrif olunmuş şəkildə şərh edilən fikrimə qayıtmaq istəyirəm: bu gün Azərbaycan dövlətinə və onun simvollarına, hakimiyyət nümayəndələrinə, cəmiyyət üzvlərinə qarşı qeyri-əxlaqi çirkab yağdıranlar xarici ölkələrin müvafiq orqanları qarşısında xüsusi öhdəlik götürmüş ünsürlərdir. Beləlri Azərbaycanın sərhədlərini keçdikdən sonra pasportlarını bəlli dairələrə təhvil verib xüsusi öhdəliklər götürür və sonra da öz dövlətlərinə qarşı mübarizəyə sövq edilirlər. Əlbəttə, bu fikri xaricdəki bütün soydaşlarımız haqqında söyləmək olmaz. Avropada yüz mindən çox azərbaycanlı məskunlaşıb, onların 15-20 min nəfəri fəaldır və ölkəmizin maraqlarını həmişə müdafiə edirlər. Hazırda söhbət müxtəlif saxta yollarla Avropada siyasi sığınacaq almış və anti-Azərbaycan fəaliyyəti ilə məşğul olan beş-on nəfərdən gedir. Onlar iki əlin barmaqları ilə sayılacaq qədərdir... Mən üzümü məhz onlara tuturam və söyləyirəm: Azərbaycanı söyməklə öz komfortlu yaşayışınızı təmin etmək, İŞİD-in virtual versiyasını yaradaraq Vətəninizə qarşı savaş açmaq insanlıq simasını itirmək deməkdir... Düşünürəm ki, cəmiyyətimiz belələrinə sükutla yanaşmamalı, diasporumuz, media nümayəndələrimiz, ictimai fəallarımız seyrçi mövqe tutmamalıdırlar...

Düşünürəm ki, məskunlaşdıqları ölkələrdə digər çoxminli soydaşlarımızdan nümunə götürərək, bu insanlar öz həyatlarını qanunlar və əxlaq normaları çərçivəsində qursalar, Azərbaycandakı qohum-əqrabaları da onlara görə utanmaz, əksinə, qürur duyarlar...

# "Azərbaycan" qəzetində prezidentliyə namizədlərin ödənişsiz təşviqat ardıcıllığını müəyyənləşdirən püşkatma keçirilib

***Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə əlaqədar artıq seçki marafonunun əsas mərhələlərindən biri olan seçkiqabağı təşviqat dövrü başlayıb. Qanunvericiliyin tələbinə əsasən seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlamasına 24 saat qalmış dayandırılır.***



Seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə müddətində qeydə alınmış namizədlər arasında dövlət dövri mətbuat nəşrləri tərəfindən ayrılmış pulsuz dərc yerinin bölgüsü məqsədilə püşkatma keçirilir. Rəsmi dövlət qəzeti olan "Azərbaycan" da namizədlərin ödənişsiz əsaslarla təşviqat materiallarına yer ayırıb.

AZƏRTAC xəbər verir ki, martın 21-də "Azərbaycan" qəzetinin redaksiyasında namizədlərin təşviqat materiallarının səhifələrdə yerləşdirilməsi ardıcıllığını müəyyənləşdirmək üçün püşkatma keçirilib. Qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələrinin iştirak etdikləri tədbirdə çıxış edən "Azərbaycan" qəzetinin parlament və siyasət şöbəsinin redaktoru, redaksiyada "Prezident seçkilərinə hazırlıq" qrupunun rəhbəri İxtiyar Hüseynli bildirib ki, rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzeti 11 aprel prezident seçkilərinin təşviqat kampaniyasında fəaliyyətini Azərbaycan Respublikasının Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının "Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında" Təlimatına əsasən müəyyənləşdirib. Qəzet prezidentliyə qeydə alınmış namizədlərin ödənişsiz əsaslarla təşviqat materiallarının dərci üçün həftə ərzində 8 min kv.sm, yəni, 4 səhifə yer ayırıb.

İxtiyar Hüseynli əlavə edib ki, üç təşviqat həftəsi çərçivəsində 8 namizədin təşviqat materialları qəzetin bazar günü nömrələrində nəşr olunacaq. "Qəzetdə dərc ediləcək təşviqat materialları hər namizəd üçün A-2 formatlı qəzetdə yarım səhifə, yəni, 1000 kv.sm nəzərdə tutulur. Bu, qanunvericiliyə əsasən ayırmalı olduğumuz həcmdən daha artıqdır. Yəni, həftəlik qəzet səhifələrinin ümumi həcminin 10 faizindən daha artıq yer təşviqat materialları üçün ayrılıb. Bu qərarımız prezidentliyə namizədlərin seçki qərargahları tərəfindən onlara dəstək kimi qarşılandı və yüksək qiymətləndirildi. Digər təklifimiz də seçki qərargahları tərəfindən ən ədalətli və obyektiv təşviqat modeli kimi dəyərləndirilib. Belə ki, biz prezident seçkilərinin təbliğat-təşviqat mərhələsində fərqli bir mexanizm təklif edirik. Hər həftə ardıcıllıq elə müəyyənləşdirilir ki, bütün namizədlər üçün bərabər təşviqat imkanları, bərabər təbliğat şəraiti yaradılır. Beləliklə, reklam materiallarının dərci ardıcıllığında ədalətlilik, bərabərhüquqluluq təmin olunacaq və namizədlərin təşviqat materialları həftələr ərzində səhifələr və mövqelər üzrə dəyişiləcək", - deyə o qeyd edib.

Sonra namizədlərin səlahiyyətli nümayəndələrinin iştirakı ilə qəzetin 25 mart, 1 və 8 aprel tarixlərində dərc ediləcək ödənişsiz təşviqat materiallarının ardıcıllığını müəyyənləşdirən püşkatma keçirilib. Püşkatmanın nəticəsinə əsasən dərc ardıcıllığı belə müəyyənləşib:

**1. Sərdar Məmmədov**
**2. İlham Əliyev**
**3. Qüdrət Həsənquliyev**
**4. Zahid Oruc**
**5. Araz Əlizadə**
**6. Fərəc Quliyev**
**7. Razi Nurullayev**
**8. Hafiz Hacıyev**

Püşkatmadan sonra səlahiyyətli nümayəndələri maraqlandıran suallara aydınlıq gətirilib və nümayəndələr öz fikirlərini bölüşüblər.

Prezidentliyə namizəd İlham Əliyevin səlahiyyətli nümayəndəsi, YAP icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib: "Püşkatma çox obyektiv şəkildə keçirildi. Prezidentliyə namizədlərin səlahiyyətli nümayəndələri, vəkilləri bütün prosesi izlədilər və prosedur qaydalarının ədalətli olduğunu açıq-aydın gördülər. Yəni, püşkatmanın nəticəsi bütün tərəflərin razılığı ilə qarşılandı. Hesab edirəm ki, tam şəffaf şəkildə püşkatma keçirildi və namizədlərin təşviqatı müəyyən olunan sıralama ilə "Azərbaycan" qəzetində bərabər imkanlar əsasında dərc ediləcək. Bu da namizədlər üçün yaradılan münbit şəraitdir və prezidentliyə namizədlərin seçicilərə öz platformasını geniş təqdim etmələri üçün çox önəmlidir".

Prezidentliyə namizəd Sərdar Məmmədovun vəkili Nurəddin İsmayılov bildirib: "Püşkatma çox ədalətli keçdi. Təşkilatçılıq yüksək səviyyədə idi. Hər bir namizəd üçün bərabər şərait yaradılıb. Bir sözlə, püşkatmadan çox razı qaldım. Hesab edirəm ki, bu, hər bir namizəd üçün yaradılan mükəmməl şəraitdir".

Prezidentliyə namizəd Araz Əlizadənin səlahiyyətli nümayəndəsi Yaşar Əsədov deyib: "Prosedur qaydaları ilə bir daha tanış olduq. Püşkatma çox şəffaf və ədalətli keçirildi. Artıq təbliğat-təşviqat kampaniyamızın rəsmi qəzetdə necə aparılması mexanizmi və bizə ayrılan yer bəllidir. İstərdik ki, namizədlərin digər mətbuat vasitələri və televiziyada da aparılan təbliğat kampaniyaları belə yüksək səviyyədə təşkil olunsun".

Prezidentliyə namizəd Razi Nurullayevin səlahiyyətli nümayəndəsi Mehriban Sadıqova bildirib: "Püşkatma çox obyektiv keçdi, prosedur qaydalarına tam əməl olundu. Hər bir nümayəndə özü püşkatmada təbliğat günlərini müəyyənləşdirdi. İnanıram ki, prezident seçkilərində seçkiqabağı təşviqat ədalətli keçəcək. Hamıya uğurlar".

Prezidentliyə namizəd Fərəc Quliyevin səlahiyyətli nümayəndəsi Həbib Ələkbərli deyib: "Püşkatma obyektiv və şəffaf keçdi. Burada şübhəli heç bir məqam ola bilməz. "Azərbaycan" qəzeti tərəfindən müəyyən edilən bu təşviqat ardıcıllığı mexanizmini çox müsbət dəyərləndirirəm".

Prezidentliyə namizəd Zahid Orucun səlahiyyətli nümayəndəsi İlqar Kərimov bildirib: "Püşkatma şəffaf şəkildə keçirildi və biz nümayəndələr tam obyektivliyin şahidiyik. Bütün qaydalara riayət edildi, rəsmi dövlət qəzetində təşviqat ardıcıllığı müəyyənləşdirildi. Hesab edirəm ki, bu seçkilərdə hər bir namizəd üçün bərabər imkanlar yaradılıb".

# Xalq İlham Əliyevə “HƏ” deyir!







## Quba

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsində təşviqat kampaniyasına start verildi. YAP Quba rayon təşkilatının fəalları prezident seçkiləri ilə bağlı təşviqat materiallarını təşviqat lövhələrinə vurmağa başlayıblar. Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı tərəfindən seçicilərlə keçiriləcək tədbirlərin qrafikinə uyğun tərzdə ilk olaraq, dünən Amsar İnzibati-Ərazi Dairəsində görüş keçirilimişdir. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin sədri Yusif Abidov çıxış edərək qeyd etdi ki, Azərbaycan reallığına bələd olan hər bir kəs yaxşı bilir ki, ölkə daxilində Azərbaycan Prezidenti İlham Əliyevə rəqib olacaq bir şəxs yoxdur: “Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycan milli maraqlarını, vətəndaşlarının mənafeyini müdafiə edib və onların sosial rifah halı daha da yaxşılaşdırılıb. Bir neçə faktı xatırlatmaq yerinə düşər ki, Cənab İlham Əliyevin Prezident kimi ölkəyə rəhbərlik etdiyi vaxtdan indiyə qədər iqtisadiyyat 3 dəfədən çox artıb və çoxsaylı istehsal müəssisələri yaradılıb. İndiyə kimi 2 milyona yaxın iş yeri yaradılıb ki, onlardan 1,4 milyonu daimidir. İqtisadiyyata 230 milyard dollardan artıq sərmayə qoyulub və valyuta ehtiyatlarımız 23 dəfə artıb. 2003-2017-ci illər ərzində iqtisadi islahatlar baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə olmayıb”.

Daha sonra çıxış edən təbliğat qrupunun üzvləri Elza Orucova və Habil Bayramlı Cənab İlham Əliyevin Prezidentliyi dövründə görülmüş işlərdən və uğurlardan danışdılar.

* * *

YAP Quba təşkilatında gənclərlə görüş keçirilib. Mütəmadi olaraq gənclərlə görüşən və söhbətlər aparan rayon təşkilatı sədri Yusif Abidov görüş zamanı gənclərlə öz tövsiyələrini verib. Ölkədə baş verən iqtisadi-siyasi inkişafdan danışan Yusif Abidov ölkə başçısı Cənab İlham Əliyevin nəinki gənclərə, ölkənin bütün vətəndaşlarına öz diqqət və qayğısını göstərdiyini qeyd edib. Bu diqqət hər addımda və bütün sahələrdə hiss edilir. Bütün qubalıların, eləcə də, gənclərin daim ölkə başçısına minnətdar olduqlarını bildirib. Elə buna görə də, biz hər birimiz qarşıdan gələn 11 aprel prezident seçkilərində, birmənalı olaraq, ölkə başçısına səs verərək ona olan dəstəyimizi, sevgi və hörmətimizi nümayiş etdirəcəyimizi diqqətə çatdırıb. Daha sonra gənclər YAP Quba rayon təşkilatının təşkilatçılığı ilə “ASAN Xidmət” kompleksinin kinoklub kafesində bayram tədbiri keçiriblər.

## Xaçmaz





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsində təbliğat-təşviqat kampaniyası çərçivəsində ilk dəfə səs verənlərlə görüş keçirilib.

Tədbirdə rayon şöbəsinin sədr müavini Sevinc Sədullayeva çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbətlik etdiyi dövr ərzində əldə edilən uğurlardan, uğurlu daxili və xarici siyasətdən, qeyri-neft sektorunun inkişafının əhəmiyyətindən, ordu quruculuğunda əldə olunan naliyyətlərdən, dövlətimizin, ölkə başçımızın gənclərə olan qayğısından danışaraq bir çox mühüm məsələləri gənclərin diqqətinə çatdırıb. Gəncləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Möhtərəm Prezidentimiz İlham Heydər oğlu Əliyevə səs verəməyə dəvət etdi.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatı gənclər birliyinin sədr müavini Esmira Babayeva, ilk dəfə səs verənlərdən Gülnar İsayeva, Azər Zahirov, Ülkər Lətifova, YAP Xaçmaz rayon təşkilatının sədr müavini Abasyar Heydərov, təşviqat qrupunun üzvləri Sürayə Əmirova, Məhərrəm Abasov çıxış edərək, gənclərimizi fəallığa dəvət etməklə, ölkəmizdə gənclər siyasəti ilə bağlı həyata keçirilən bir sıra uğurlu layihələrin nəticələrini onların diqqətnə çatdırıblar.

Sonda gəncləri və onların timsalında bütün seçiciləri Cənab İlham Əliyevin ətrafında sıx birləşməyə dəvət etməklə, Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıblar.

## Kürdəmir



Kürdəmirdə Novruz bayramı və İlaxır çərşənbə münasibətilə şənlik keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri, ağsaqqallar, ziyalılar, gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Rayonun “Qələbə” Parkında Novruztonqalı yandırılıb və xalq musiqiləri səsləndirilib. Daha sonra son 15 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılan möhtəşəm uğurları və qarşıdakı illərdə yeni hədəfləri özündə əks etdirən bukletlər seçicilərə paylanılıb. Çağırışçı şüarlar səsləndirilib. Bayram mərasimi incəsənət ustalarının iştirakı ilə verilən maraqlı konsert proqramı ilə davam edib.

Ardı Səh. 7

# Xalq İlham Əliyevə "HƏ" deyir!

**Tərtər**





(əvvəli səh. 6-da)

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar olaraq Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsində gənclərlə görüş keçirilib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Tərtər rayon şöbəsi seçki qərargahının sədri Ramiz Şabanov prezident seçkiləri ilə əlaqədar görülən hazırlıq işlərindən, təbliğat-təşviqat kampaniyasında rayon gənclərinin rolunu qeyd edərək, onların bu dövrdə daha fəal olmalarının vacibliyini vurğulayıb. Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin son 15 ildə ölkəyə rəhbərliyi dövründə gördüyü möhtəşəm işlər təbliğat kampaniyasında əsas faktorlar kimi istifadə olunacaqdır. Azərbaycan gəncliyi, o cümlədən, Tərtər gəncləri "İnamla, İlhamla gələcəyə doğru" devizi altında ölkəmizdə növbəti 7 il ərzində bugünkü Prezidentimiz, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin rəhbərləiyi ilə uğurla addımlamaqda davam edəcəklər.

Tədbirdə vurğulanıb ki, tərtərli gənclər 11 aprel 2018-ci il keçiriləcək seçkilərdə fəal iştirak edəcək və Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər.



**Ağcabədi**

YAP Ağcabədi rayon təşkilatı və Gənclər üçün Təhsil Mərkəzi Qarabağ regional ofisinin birgə təşkilatçılığı ilə rayon ərazisindəki Heydər Əliyev Mərkəzində xüsusi qayğıya ehtiyacı olan və aztəminatlı ailələrin uşaqları üçün Novruz bayramı münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri, GTM Qarabağ ofisinin rəhbəri Radə Telmanqızı tədbir iştirakçılarını bayram münasibəti ilə təbrik edərək, qeyd edib ki, qədim tarixə malik Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd edilir. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa və insana məhəbbət bayramıdır. Tədbirdə Ağcabədi rayon icra hakimiyyətinin ictimai-siyasi və humanitar şöbəsi müdir müavini Təyyar Hacıyev, Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının əməkdaşları Mehman Novruzov və Ramil Nağıyev, Heydər Əliyev Mərkəzinin direktoru Məhsəti Ağayeva, N saylı hərbi hissənin zabit və əsgərləri çıxış edərək, Novruz bayramı münasibətilə uşaqları təbrik ediblər.



Tədbirdə folklor qrupunun Novruz adət-ənənələrindən ibarət çıxışı, GTM Qarabağ regional ofisi nəzdində fəaliyyət göstərən İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzinin balaca fidanlarının hazırladığı maraqlı musiqili bayram proqramı tədbir iştirakçılarında xoş ovqat yaradıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# AMEA-nın vitse-prezidenti: Azərbaycan alimləri yalnız İlham Əliyevin timsalında Azərbaycanın parlaq gələcəyini görürlər

***Bu gün Azərbaycan alimləri Prezident İlham Əliyev tərəfindən həm maddi, həm də mənəvi dəstək görürlər. Bunu Trend-ə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli deyib.***



Azərbaycanın, o cümlədən elm sahəsinin inkişafında ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin çox mühüm rolu olduğunu deyən İ.Həbibbəyli ölkə başçısının elm sahəsinə hazırda da önəm verdiyini söyləyib. Akademik qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən elm sahəsində ciddi islahatlar həyata keçirilib. Bu sahə Azərbaycanın milli və dövlətçilik maraqlarına uyğun inkişaf etdirilir. İ.Həbibbəylinin sözlərinə görə, elm sahəsində fəaliyyəti daha da stimullaşdırmaq üçün AMEA-nın tərkibində Yüksək Texnologiyalar Parkı yaradılıb, Təcrübə-Sənaye Zavodu inkişaf etdirilib. Bunların nəticəsində Azərbaycan elmi innovativ layihələrin gerçəkləşməsi üçün imkan əldə edib.

Bunu elm sahəsinə göstərilən müstəsna qayğı kimi dəyərləndirən İ.Həbibbəyli deyib ki, akademiyanın sahibkarlıq fəaliyyəti ilə məşğul olması elm sahəsində, AMEA-nın fəaliyyəti dövründə yeni hadisədir: "Prezident İlham Əliyevin apardığı islahatlar nəticəsində Akademiyada fundamental dəyişikliklərin davam etdirilməsi ilə yanaşı, innovativ yönümlü, istehsalat yönümlü addımlar atılıb və nəzəriyyədən praktikaya keçilib. Bununla da Azərbaycan elminin inkişafına böyük təkan verilib".

İ.Həbibbəyli bildirib ki, AMEA-da magistratura şöbəsinin yaradılması Prezident İlham Əliyevin təhsil sahəsində həyata keçirdiyi işlərdən biridir.

Akademiyanın vitse-prezidentinin sözlərinə görə, dövlətimizin müstəqilliyinin ilk illərində AMEA-nın beynəlxalq əlaqələri arzuolunan səviyyədə qurulmamışdı. Lakin son illər ərzində Akademiya dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı elmi təcrübənin aparılması üçün 40-dan çox müqavilə bağlayıb: "Bu da Azərbaycan elmini dünyada tanıtmağa geniş imkan açır. Bu, Azərbaycanın imicinin yüksəldilməsi üçün daha bir istiqamətdir. İlham Əliyevin bu sahəyə dəstəyi Akademiyanın inkişafına böyük təkan verir".

Son 15 il ərzində Azərbaycanda alimlərin maddi rifah səviyyəsinin yaxşılaşdırılması üçün də işlərin görüldüyünü deyən İ.Həbibbəyli bildirib ki, sadalanan amillərə, o cümlədən ölkəmizdəki sabitliyə görə Azərbaycan alimləri İlham Əliyevin fəaliyyətini yüksək dəyərləndirirlər və ona bütün istiqamətlərdə tam dəstək verirlər: "Qarşıdan gələn seçkilərdə də bütün Azərbaycan xalqı, o cümlədən də alimləri Prezident İlham Əliyevin qələbəsini ölkəmizin gələcəyi üçün vacib hesab edirlər. Azərbaycan alimləri, ziyalıları İlham Əliyevin namizədliyini dəstəkləyir. Yalnız onun timsalında Azərbaycanın parlaq gələcəyini görürük".

# Rauf Əliyev: Azərbaycan dövləti demokratik seçkilər keçirmək ənənəsinə və iradəsinə sahibdir



***"Azərbaycan dövləti demokratik seçkilər keçirmək ənənəsinə və iradəsinə sahibdir". Bu fikri Milli Məclisin deputatı Rauf Əliyev deyib. R.Əliyev bildirib ki, bu günə qədər ölkəmizdə keçirilən seçkilər demokratik prinsiplərə və seçki qanunvericiliyinin tələblərinə əsaslanmaqla xalqımızın siyasi iradəsini dolğun şəkildə əks etdirib. Onun sözlərinə görə, aprelin 11-də keçiriləcək prezident seçkiləri də bu baxımdan istisna olmayacaq.***

Azərbaycanda seçkilərin demokratik, azad və şəffaf şəkildə baş tutması üçün əlverişli şəraitin yaradıldığını deyən deputat söyləyib ki, seçkinin keçirilməsinə məsul olan qurumlar lazımi hazırlıq işlərini uğurla həyata keçirir, bütün texniki məsələlər həllini tapıb, müvafiq seçki komissiyalarının maddi-texniki təminatı gücləndirilib.

"Seçkilərdə iştirak edəcək namizədlərə bərabər, rəqabət mühitinin yaradılması, geniş təbliğat, təşviqat imkanlarının olması prezident seçkilərinin azad və ədalətli keçiriləcəyinə əminlik yaradır. Bunlarla yanaşı, prezident seçkilərinə ictimai marağın, seçicilərin böyük diqqətinin olması xalqımızın bu seçkilərin Azərbaycanın inkişafı tarixində əhəmiyyətini yüksək qiymətləndirdiyini göstərir. Hazırda prezident seçkiləri ilə əlaqədar xalqımızın əhval-ruhiyyəsi olduqca yüksəkdir. Şübhə etmirik ki, Azərbaycan dövləti və xalqımız aprelin 11-də keçiriləcək prezident seçkilərini yüksək səviyyədə başa vuracaq"-deyə, deputat vurğulayıb.

# Başlanan və uğurla davam edən işləri İlham Əliyevlə davam etmək zamanın tələbidir, xalqın təkididir, Azərbaycan ziyalılarının təklifidir

## AMEA-nın prezidenti, YAP Sədrinin müavini, akademik Akif Əlizadənin yap.org.az-a müsahibəsi



***- Akif müəllim, Azərbaycan Respublikası mühüm siyasi hadisə ərəfəsindədir. Aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Bununla əlaqədar olaraq sizin düşüncələrinizi bilmək istərdik...***

- Əvvəlcə qeyd edim ki, bu il bütün müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında "Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Sərəncam imzalamışdır. Xalqımızın dövlətçilik ənənələrini, azadlıq, müstəqillik eşqini öz qəlbində daim qoruyub saxlamasının nəticəsidir ki, 70 illik sovet hakimiyyətindən sonra Azərbaycan öz dövlət müstəqilliyini yenidən bərpa etmiş, bütün çətinliklərə baxmayaraq müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində onu qoruyub saxlamağa nail olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq qurulan müstəqil Azərbaycan otuz ilə yaxın bir müddətdə öz strateji hədəflərinə doğru inamla addımlamaqda, dünya birliyinin bərabərhüquqlu üzvü kimi beynəlxalq aləmə inteqrasiya olunmaqda, sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf etməkdədir.

Dövlətçilik ənənələri baxımından olduqca əlamətdardır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etdiyimiz 2018-ci il həm də demokratik cümhuriyyətçilik ənənələrinin ən mühüm göstəricilərindən olan Azərbaycan Respublikası Prezidentliyinə növbəti seçki ilidir. Təbiidir ki, bu, ölkəmiz üçün olduqca əlamətdar bir hadisədir. Heç şübhəsiz, əvvəlki dövrlərdə olduğu kimi, bu seçkilərdə də xalqımızın alternativsiz namizədi hazırda dünya siyasi liderləri içərisində intellektual potensialına görə xüsusilə fərqlənən, müasir imicli siyasi xadim kimi böyük nüfuza malik olan İlham Heydər oğlu Əliyevdir.

Tarixin təcrübəsi sübut edir ki, hər bir siyasi xadimin, dövlət rəhbərinin ideoloji məramı, idarəçilik fəlsəfəsi, fəaliyyət diapazonu onun mənsub olduğu xalqa münasibəti ilə şərtlənir. Bu mənada son on beş ildə İlham Əliyevin müstəqil Azərbaycan Respublikasının rəhbəri olaraq həyata keçirdiyi siyasət onu göstərir ki, onun idarəçilik fəlsəfəsinin əsasında xalqımızın tarixi taleyi qarşısında ümummilli məsuliyyət və cavabdehlik hissi dayanır. Azərbaycana rəhbərlik illərində xalqın taleyi ilə öz şəxsi taleyini birləşdirmək, öz ömrünü xalqının ömrü kimi yaşamaq İlham Əliyevin tale yazısına çevrilmişdir. Bu, çətin və məsuliyyətli olmaqla yanaşı, həm də olduqca şərəfli bir taledir!

***- Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük inkişaf yolu keçib. Bu dövrdə əldə olunan quruculuq və inkişaf proseslərinin müstəqil ölkəmizin müasirləşməsi baxımından əhəmiyyəti nədən ibarətdir?***

- Son on beş ildə Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində müstəqil Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf etmiş, beynəlxalq aləmdə ölkəmizin strateji mövqeləri kifayət qədər möhkəmlənmişdir. Həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşması, demokratik idarəçilik mexanizmlərinin tətbiqi, vətəndaş cəmiyyətinin qurulması, hüquqi təsisatların bərqərar edilməsi, ən müxtəlif sahələr üzrə etibarlı beynəlxalq tərəfdaş imicinin qazanılması inkişaf edən müasir Azərbaycanın reallıqlarına çevrilmişdir. Hazırda dünyada və regionda siyasi, iqtisadi və hərbi böhranların müşahidə olunduğu bir şəraitdə ölkəmizin müxtəlif xarakterli risklərdən uğurla yayınması, respublikada sabitliyin qorunub saxlanılması, sosial-iqtisadi və mədəni-mənəvi inkişaf tempinin heç bir halda zəifləməsinə yol verilməməsi də bilavasitə cənab İlham Əliyevin uğurlu dövlət siyasətinin nəticəsidir.

Hamıya yaxşı məlumdur ki, İlham Əliyev on beş il bundan öncə Prezidentlik fəaliyyətinə başlayarkən "Neft kapitalını insan kapitalına çevirməliyik!" devizi altında təbii resurslara əsaslanan iqtisadiyyatdan biliklər iqtisadiyyatına keçidi ölkənin strateji hədəfi elan etdi.

Azərbaycanın bütün sahələr üzrə hərtərəfli inkişafı onu deməyə əsas verir ki, müasir dünyadakı kataklizmlərə baxmayaraq, ölkəmiz neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində, intellektual inkişaf modelinə əsaslanan modern cəmiyyət quruculuğu yolunda uğurla addımlamaqdadır. Xalqımız qeyd olunan bütün bu uğurlara İlham Əliyevin rəhbərliyi ilə nail olmuşdur. Prezident İlham Əliyevin bir siyasi lider kimi yetişməsinə bir sıra amillər mühüm təsir göstərmişdir. İlk növbədə onun doğulub boya başa çatdığı ailə mühitini xüsusilə qeyd etmək lazımdır. İlham Əliyev Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin ailəsində dünyaya göz açmış, bu dahi şəxsiyyətin tərbiyəsi ilə böyümüş, onun milli dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin ideyaları işığında bir şəxsiyyət kimi formalaşmışdır. Belə bir genetik və mənəvi varisliyin nəticəsidir ki, Ümummilli lider Heydər Əliyevin bütün varlığı ilə bağlı olduğu Azərbaycan idealı İlham Əliyevin də amalına çevrilmişdir. Onun şəxsində genetik kökdən və "ailə məktəbindən" gələn xüsusiyyətlərlə modern təhsildən gələn cəhətlər üzvi şəkildə birləşərək unikal bir şəxsiyyət bütövü yaratmışdır.

Modern cəmiyyətlərin xarakterini öyrənən alimlər hesab edir ki, hazırkı şəraitdə sosial tərəqqi tempi əsasən hakimiyyətin intellektlə uzlaşdırılması dərəcəsindən asılıdır. Bu fikri geniş mənada dərk etmək lazımdır. Burada hər bir cəmiyyətin keçdiyi tarixi, geomədəni, siyasi, iqtisadi təkamül yolunu nəzərə alaraq intellektual potensialdan optimal surətdə istifadə etmək ideyası vardır. Həmin xüsusiyyət İlham Əliyevin inteqrativ modernləşmə kursunda öz əksini tapmışdır. Bu kursun bir tərəfi dövlətçiliyin inkişafında mədəniyyət faktoruna böyük önəm verilməsinə bağlıdırsa, digər tərəfi cəmiyyətin konsolidasiyasına, daxili inteqrasiyasına önəm verilməsinə dayanır. Ölkənin intellektual sərvəti bu yanaşmada strateji əhəmiyyət kəsb edir. Həyata keçirilən bütün islahatlarda intellektual potensial əsas yer tutur. İnsan kapitalı digər dəyərlərdən daha vacib hesab edilir. Eyni zamanda, cəmiyyətin bütün təbəqələrinin və sahələrinin qarşılıqlı əlaqəsi, harmonik inkişafı əsas hədəf kimi qəbul edilir. Bütün bunların yekunu isə "biliklər cəmiyyəti"nin yaradılması olmalıdır. Azərbaycan məhz bu istiqamətdə uğurla və inamla irəliləməkdədir. Bu gerçəkliyi yalnız biz demirik, bunu bütün dünya etiraf edir. İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi müddətdə fəaliyyətində intellektə çox böyük yer verməsi səbəbsiz deyil.

***- Akif müəllim, ötən 15 ildə qazanılan nailiyyətlərdən söhbət açarkən, Azərbaycan elminin inkişafı haqqında da fikirlərinizi bilmək maraqlı olardı. Bu sahədə hansı nailiyyətlər əldə olunub və gələcək üçün hədəflər nədir?***

- Çəkinmədən deyərdim ki, Prezident İlham Əliyev postsovet məkanında hakimiyyətlə intellektin vəhdətinə nail olan tək-tək liderlərdəndir. O, milli sərvətimizin ayrılmaz tərkib hissəsi olan elmi potensialın qorunmasını və inkişaf etdirilməsini dövlət siyasətinin vacib istiqamətlərindən biri hesab edir. Azərbaycan alimlərinin maddi rifah halının yaxşılaşdırılmasına, Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsinə, milli cəmiyyət və demokratik dövlət quruculuğu işində elmi potensialdan istifadəyə yönəlmiş əməli addımlar bunun bariz nümunəsidir.

Son on beş ildə cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə elmi fəaliyyət sahəsinin inkişafını üç mühüm mərhələyə ayırmaq mümkündür:

### I. 2003-2008-ci illər: "neft kapitalının insan kapitalına çevrilməsi" sosial-iqtisadi inkişafın əsas formulu kimi

2003-2008-ci illər dövlətin neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində həyata keçirdiyi siyasətin nəticəsi olaraq, Azərbaycan elmi öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Bu yeni mərhələ elmin maddi-texniki bazasının gücləndirilməsi, alimlərin sosial vəziyyətinin əsaslı olaraq yaxşılaşdırılması, elmin prioritet fəaliyyət sahəsi kimi cəmiyyətdə nüfuzunun artırılması, dövlət siyasətinin həyata keçirilməsində elmi potensialdan səmərəli istifadə edilməsi, elmin informasiya təminatının gücləndirilməsinə xidmət edən uzunmüddətli layihələrə start verilməsi və s. kimi istiqamətlərlə xarakterizə olunur.

### II. 2008-2013-cü illər: dövlətin modernləşmə siyasəti kontekstində elmin inkişaf strategiyası

2008-2013-cü illər Azərbaycan elminin inkişafında növbəti mühüm bir mərhələni təşkil edir. Bu illər ərzində Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli Strategiya və həmin Strategiya ilə bağlı Dövlət Proqramı həyata keçirilib. Strategiyanın icrası istiqamətində dövlətin elmi-texniki və innovasiya siyasətinin əsas istiqamətləri müəyyənləşdirildi, elm və texnika sahəsində idarəetmə sisteminin və elmi qurumların strukturunun təkmilləşdirilməsi, beynəlxalq elmi əməkdaşlığı, yüksəkixtisaslı kadrların hazırlanması, xüsusən gənclərin Avropanın xarici elmi mərkəzlərə göndərilməsi, Akademiyanın dövlət proqramlarının icrasında yaxından iştirakı və s. kimi istiqamətlər üzrə olduqca əhəmiyyətli addımlar atıldı. Həmçinin, elm və təhsilin inteqrasiyası, elmi işçilərin sosial müdafiəsinin gücləndirilməsi, elektron elmin formalaşması sahəsində də bir sıra uğurlar əldə edildi.

### III. 2013-2018-ci illər: elmi fəaliyyətdə çoxprofilli islahatlar zəminində yüksəktexnologiyaların və innovasiya potensialının inkişafı

2013-2018-ci illər Azərbaycan elminin inkişafı baxımından olduqca mühüm bir tarixi mərhələdir. 2013-cü ilin aprel ayında AMEA Rəyasət Heyətinin yeni tərkibi seçilmiş, onun gələcək fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş, elmi fəaliyyət sahəsində köklü islahatlara start verilmişdir. Nəzərdə tutulan islahatyönlü işlərin həyata keçirilməsi üçün ilk növbədə Rəyasət Heyətinin Mərkəzi aparatının strukturunda əsaslı dəyişiklik edilmişdir. Rəyasət Heyəti, sözün əsl mənasında, ən aktual elmi, elmi-innovativ və elmi-təşkilati məsələlərin professional və multidissiplinar səviyyədə müzakirə olunduğu intellektual beyin mərkəzinə çevrilmişdir. Bu mərhələdə respublikanın sosial-iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edən bir sıra elmi məruzələr geniş müzakirə olunmuşdur. Həmçinin fundamental elmlər üzrə araşdırmaların müasir tələblər səviyyəsinə çatdırılması, multidissiplinar tədqiqatların elmi fəaliyyətin perspektivli sahəsi kimi dəyərləndirilməsi, nano-, bio-, informasiya və digər qabaqcıl texnologiyaların araşdırılması, innovasiya fəaliyyətinin gücləndirilməsi, elmi potensialın inkişafında dövlət, biznes və qeyri-dövlət sektorlarının qarşılıqlı əlaqələrinin təşkili və s. məsələlər barəsində müvafiq qərarlar qəbul edilmişdir.

Azərbaycan elminin son beş illik tarixinin ən mühüm hadisələ-

rindən biri 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin təntənə ilə qeyd edilməsi olmuşdur. Olduqca əlamətdar bir hadisədir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Akademiyanın 70 illik yubileyinə həsr olunmuş Ümumi yığıncaqda iştirak etmiş, dərin məzmunlu nitq söyləmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev Ümumi yığıncaqdakı parlaq çıxışı ilə müasir şəraitdə Azərbaycan elminin prioritetlərini müəyyənləşdirdi, onların həyata keçirilməsi üçün Akademiyamız qarşısında mühüm vəzifələr qoydu. Hazırda Azərbaycan alimləri cənab İlham Əliyevin müəyyənləşdirdiyi prioritetlər üzrə öz gələcək hədəflərinə doğru uğurla addımlamaqdadırlar.

Qeyd etdiyimiz kimi, hazırda Azərbaycan xalqı öz gələcək tarixi taleyinin müəyyənləşməsi baxımından olduqca taleyüklü bir dövrü yaşamaqdadır. Belə bir məqamda mən bütün yaradıcı elmi ictimaiyyəti, Azərbaycan ziyalılarını, bütün xalqımızı Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin namizədliyini dəstəkləməyə, ona səs verməyə çağırıram! Biz Azərbaycanın bugünkü inkişafına cənab Prezidentimizin rəhbərliyi ilə gəlib çatmışıq. Növbəti uğur və nailiyyət zirvələrinə doğru da onun rəhbərliyi altında yenə birgə addımlamalıyıq. Həm də bu, yalnız bizim arzumuz deyil! Bunu xalqın müasir dövrdəki tarixi taleyi tələb edir. Yeni Azərbaycan Partiyası hakim partiya olaraq xalqın gələcəyi naminə öz üzərinə böyük məsuliyyət götürmüş, İlham Əliyevin rəhbərliyi ilə bu məsuliyyətin öhdəsindən bu günə qədər uğurla gəlmişdir.

***- Hazırda prezident seçkilərinin təbliğat-təşviqat mərhələsindəyik. Azərbaycan seçicilərinə nə deyərdiniz?***

- Cənab İlham Əliyev Prezidentlik illərində Azərbaycan cəmiyyətinin daxili potensialına əsaslanan modernləşmə mərhələsinə keçidi üçün zəruri olan bütün əsasları hazırlamışdır. Həmin dövrdə iqtisadiyyatda keçid mərhələsi başa çatmış, sosial, siyasi, mədəni sahələrdə vətəndaş cəmiyyətinin formalaşmasının təməlini hazırlayan islahatlar həyata keçirilmiş, ölkənin regional geostatusu dəqiqləşmişdir. Həmçinin, İlham Əliyev Azərbaycanın modernləşməsinin yeni mərhələsini həyata keçirməyə başlamış və bu kursun nəticəsində Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan inkişaf edərək bölgənin lider dövlətinə çevrilmişdir. İndi Azərbaycan qəbul olunan dövlət proqramlarında, strateji dövlət sənədlərində əksini tapdığı kimi, intellektual inkişaf modelinə əsaslanan keyfiyyətcə tamamilə yeni inkişaf mərhələsinə keçid ərəfəsindədir. Başlanan və uğurla davam edən işləri bir an belə olsun yarımçıq qoymaq olmaz! Bu, zamanın tələbidir! Bu, xalqın təkididir! Bu Azərbaycan ziyalılarının təklifidir!

Mən əminəm ki, Azərbaycan dövlətini və cəmiyyətini intellektin və mənəvi dəyərlərin işığında gələcəyə apara biləcək ən layiqli insan İlham Əliyevdir! Bütün xalqımızı İlham Heydər oğlu Əliyevin namizədliyini dəstəkləməyə, hamını işıqlı gələcəyə səs verməyə çağırıram!

# "Azərbaycanda seçicilərin öz iradəsini sərbəst ifadə etmək imkanı var"



***Azərbaycanda azad, demokratik və şəffaf seçkilərin keçirilməsi üçün hər cür şərait mövcuddur". SİA-nın verdiyi məlumata görə, bu fikri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib. S.Fətəliyeva bildirib ki, hər hansı seçkinin keçirilməsi üçün bir sıra şərtlərin təmin olunması vacibdir.***

Onun sözlərinə görə, bunlardan biri ölkədə siyasi sabitlikdir ki, Azərbaycanda da möhkəm əsaslara malik sabitlik mühiti hökm sürür.

"Digər tərəfdən, Azərbaycanda demokratik və şəffaf seçkilərin keçirilməsi üçün zəngin qanunvericilik bazası mövcuddur. Seçki Məcəlləsi, bu sahəni əhatə edən qanun və qərarların mövcudluğu ölkəmizdə beynəlxalq standartlara uyğun seçki qanunvericiliyinin olduğunu təsdiq edir. Həmçinin seçki proseslərinin uğurlu təşkili və həyata keçirilməsi üçün maddi-texniki təminat məsələləri yüksək səviyyədə həllini tapıb. Bütün proseslərin şəffaf olması üçün müşahidəçilik institutundan geniş istifadə edilir. Seçkilərdə namizədlərə bərabər imkanların təmin olunması, təbliğat-təşviqat kampaniyasının həyata keçirilməsi üçün əlverişli mühitin formalaşdırılması da prosesin demokratikliyini və ədalətli olacağını göstərir. Bu gün Azərbaycanda hər bir seçicinin öz iradəsini sərbəst şəkildə ifadə etməsi üçün bütün imkanlar var", - deyə Sevinc Fətəliyeva qeyd edib.

# Balkan ölkələrində təhsil alan tələbə-gənclər: "Siz bütün azərbaycanlıların sevimlisi və liderisiniz"



Azərbaycandan kənarda yaşayan soydaşlarımız, eləcə də, xaricdə təhsil alan tələbə -gənclər aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevi birmənalı olaraq dəstəklədiklərini və müdafiə etdiklərini bildirirlər. Bu günlərdə Xorvatiya, Sloveniya, Serbiya, Albaniya Makidoniya, Monteneqro, Bosniya və Hersoqovinada təhsil alan azəbaycanlı tələbə-gənclər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlayıblar. Müraciətdə qeyd olunur ki, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasət onun regiondakı, dünyadakı geosiyasi və geoiqtisadi mövqeyini get-gedə gücləndirir. Azərbaycan bu gün beynəlxalq arenada söz sahibi olan bir dövlətə çevrilmişdir.

Cənab İlham Əliyevə ünvanlanan müraciətdə qeyd olunur ki, Balkanlarda yaşayan Azərbaycan gəncləri ölkəmizdə güclü dövlətçiliyin qorunub saxlanması, davamlı ictimai- siyasi sabitliyin və sosial -iqtisadi inkişafın təmin edilməsi, vətənimizin günü-gündən qüdrətlənməsi və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi ilə bağlı siyasi kursunuzu tam dəstəkləyir və bundan sonra da öz üzərinə düşən vətəndaşlıq borcunu sədaqətlə, ləyaqətlə və vicdanla yerinə yetirməyə hazırdır: "Siz (cənab İlham Əliyev) təkcə ölkəmizdə deyil, eyni zamanda dünyanın müxtəlif ölkələrində yaşayan, qəlbi vətən eşqi ilə döyünən bütün azərbaycanlıların sevimlisi və liderisiniz. Azərbaycan dövlətinin çiçəklənməsi və inkişafı naminə, öz fəaliyyətimizdə xalqımızın etimadını, dəstəyini qazanmış hər birimizin prezidenti, bugünə qədər əldə edilmiş naliyyətlərin təminatçısı kimi hər zaman yanınızda olduğumuzu bildirir, Sizi dəstəkləyir, bu dəstəyi bundan sonra da davam etdirəcəyimizi qətiyyətlə bəyan edirik".

Müraciəti Xorvatiya, Sloveniya, Serbiya, Albaniya Makidoniya, Monteneqro, Bosniya və Hersoqovinada təhsil alan 300 nəfərə yaxın azəbaycanlı tələbə-gənc imzalamışdır.

# Mirhəsən Seyidov: "Azərbaycan gəncləri prezident seçkilərində fəal olmalıdır"



"Əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də seçkilərin uğurla keçiriləcəyinə əminəm. Azərbaycanda işlək seçki mexanizminin olması belə deməyə əsas verir. Ölkəmizdə demokratik seçki mühiti mövcuddur, bütün siyasi partiyalara seçkilərin hər bir mərhələsində eyni şərait yaradılıb". Bu fikirləri SİA-ya açıqlamasında "İrəli" İctimai Birliyinin sədri, Gənclər Fondunun Müşahidə Şurasının üzvü Mirhəsən Seyidov deyib.

Azərbaycanın demokratik ölkə olduğunu bildirən M.Seyidov deyib: "1993-cü ildən bu günə qədər ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində şəffaflıq təmin olunub, demokratik prinsiplərə tam əməl edilib. Ölkəmizin böyük seçki təcrübəsi formalaşıb. Seçki məntəqələrində müşahidə kameraları quraşdırılıb, həm beynəlxalq, həm də yerli müşahidəçilər Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçirlər. Əminəm ki, bütün dünya aprelin 11-də bir daha Azərbaycanın demokratik seçki ənənələrinin şahidi olacaq".

"İrəli" sədri Azərbaycanın son illərdə böyük inkişaf yolu keçdiyini, ölkədə ictimai-siyasi sabitliyin qorunub saxlandığını dilə gətirib: "Demokratik, şəffaf seçkilərin keçirilməsi üçün bu, çox mühüm amildir. Son illər Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən uğurlu istiqamətlərindən biri gənclər təbəqəsi və idman siyasəti olub. Gənclər siyasəti nəticəsində bu gün Azərbaycan dövlətinin idarə olunmasında fəal iştirak edən güclü gənclər ordusu formalaşıb. Cəmiyyətin ən fəal təbəqəsi kimi gənclər də seçkilərdə fəal olmalıdırlar. Azərbaycan gənci bütün ictimai-siyasi proseslərdə daim aktiv olub və gənclərimizin apreldə keçiriləcək prezident seçkilərinin, eləcə də seçki kampaniyasının yüksək səviyyədə keçirilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərinə inanıram".

***Ceyhun RASİMOĞLU***

# Azərbaycanın idman ictimaiyyətinin seçimi idmançıların böyük dostu İlham Əliyevdir



XXVII Yay Olimpiya Oyunlarının çempionu, Azərbaycan Respublikasının Əməkdar idman xadimi Zemfira Meftaxetdinovanın yap.org.az-a müsahibəsi

**- Zemfira xanım, bildiyiniz kimi aprelin 11-də respublikamızda növbəti prezident seçkiləri keçiriləcək. Azərbaycan idmanının tanınmış simalarından biri kimi, Sizin bu seçkilərlə bağlı düşüncələrinizi bölüşməyinizi istərdik...**

- Hər bir sivil cəmiyyətdə olduğu kimi ölkəmizin də həyatında prezident seçkiləri mühüm və əlamətdar hadisədir. Azərbaycan xalqı növbəti müddətə öz Prezidentini, liderini seçir. İlk növbədə, mən ölkə əhalisini, xalqımızı fəal olmağa və belə taleyüklü bir məsələdə həmrəylik nümayiş etdirməyə, Azərbaycanın uğurlu gələcəyi - İlham Əliyevi dəstəkləməyə səsləyirəm.

**- Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə diqqət mərkəzində olan məsələlərdən biri idmanın inkişafıdır. İdman sahəsində əldə olunan nəticələri necə qiymətləndirirsiniz?**

- Tamamilə düz buyurursunuz... Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə bütün sahələrdə olduğu kimi idmanın da inkişafı diqqət mərkəzində olmuşdur. İdman sahəsində qazanılan nailiyyətlər, həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi potensialını müəyyənləşdirən vacib meyarlardan biri kimi təbliğati-siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə bədən tərbiyəsi və idman təşkilatlarının fəaliyyətinin hüquqi, təşkilati, iqtisadi və sosial əsasları təsbit olunmuş, bu sahədə dövlət siyasətinin prinsipləri müəyyən olunmuş, idmanın kütləviliyinin təmin edilməsi, onun maddi-texniki təminatının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmış, ölkə ərazisində, hətta ən ucqar rayonlarda belə müasir idman komplekslәri tikilərək istifadəyə verilmiş, Azərbaycan böyük beynəlxalq idman tədbirlərinin keçirilmə məkanına çevrilmişdir. Bu baxımdan ölkəmizdə keçirilən I Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını və "Formula-1" Qran-Pri yarışlarının Bakı mərhələsini misal göstərmək olar.

Eyni zamanda qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin 4 mart 2005-ci il tarixli Sərəncamı ilə 5 mart Azərbaycan Respublikasında "Bədən tərbiyəsi və idman günü" elan edilmişdir.

**- Necə hesab edirsiniz, Azərbaycanı dünyanın ən nüfuzlu idman dövlətlərindən biri kimi xarakterizə etmək olarmı?**

- Azərbaycanın gənc dövlət olmasına baxmayaraq əminliklə demək olar ki, o, böyük idman ölkəsidir. Bunu eyni zamanda nüfuzlu beynəlxalq idman təşkilatlarının, o cümlədən Beynəlxalq Olimpiya Komitəsinin illik hesabatlarından da aydın görmək olar. Gənc dövlət olmasına baxmayaraq, Azərbaycan dünyanın bu sahədə öz sözünü demiş nüfuzlu idman ölkələrindən sayılır. İdmanın müxtəlif növləri üzrə keçirilən Avropa və Dünya çempionatlarında, Olimpiya Oyunlarında yüksək nailiyyətlərimiz, qitənin ən nüfuzlu yarışlarından olan I Avropa Oyunlarında komanda hesabında ikinci, IV İslam Həmrəyliyi Oyunlarında isə birinci olmağımız buna əyani misaldır.

**- Prezident İlham Əliyev hər zaman idmançılarımıza xüsusi diqqət və qayğı göstərir. O cümlədən, Siz də bu diqqətlə əhatə olunan idmançılar sırasındasınız. Bu barədə təəssüratlarınız nədən ibarətdir?**

- Bayaq da qeyd etdiyim kimi Azərbaycan böyük idman ölkəsidir və buna yalnız dövlət dəstəyi, millətin, gənc nəslin sağlamlığına hesablanan uğurlu, uzaqgörən siyasət nəticəsində nail olmaq olardı. Biz idmançılar hər zaman üzərimizdə ölkə rəhbərliyinin, o cümlədən şəxsən hörmətli Prezidentimiz İlham Əliyevin yüksək inamını, diqqət və qayğısını hiss etmişik. Öz növbəmizdə həmişə çalışmıq ki, bizə olan bu yüksək etimadı doğruldaq, ölkəmizin, vətənimizin, adını uca tutaq və çalışdığımız sahədə dövlətçilik ənənələrinə sadiq olaq.

**- Zemfira xanım, artıq seçki gününə az bir vaxt qalıb. Əminliklə demək olarmı ki, bu seçkilərdə Azərbaycanın idman ictimaiyyətinin seçimi məhz cənab İlham Əliyevdir?**

- Bəli, biz idmançılar bu seçkilərdə cənab İlham Əliyevin namizədliyini dəstəkləyirik və əminliklə qeyd etmək istəyirəm ki, Azərbaycanın idman ictimaiyyətinin seçimi məhz idmançıların böyük dostu cənab İlham Əliyev olacaq.

# "Siyasi mübarizəni şər-böhtan səviyyəsinə endirmək anti-Azərbaycan mərkəzlərin yeni taktikası kimi müəyyənləşdirilib"



"Siyasi mübarizəni şər-böhtan səviyyəsinə endirmək anti-Azərbaycan mərkəzlərin yeni taktikası kimi müəyyənləşdirilib. Bu, xüsusi məqsədə xidmət etməklə milli-mənəvi dəyərlərimizə qarşı yönəlib". Bunu "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Nikmət Babaoğlu bildirib. Onun sözlərinə görə seçki prosesi mərhələsində belə qüvvələrin fəallaşması da təsadüfi deyil: "Çünki seçki mədəniyyəti siyasi mədəniyyətin mühüm tərkib hissəsi olmaqla həm də ümumi mədəniyyətimizin keyfiyyətini müəyyənləşdirir. Ona görə də, seçki ilində siyasi dəyərlərimizin və mədəniyyətimizin hədəfə alınması, ictimai nüfuz sahiblərinin, mühüm dövlət məmurlarının gözdən salınması, onların fikirlərinin təhrif edilməsi təsadüfi deyil".

Nikmət Babaoğlu onu da bildirib ki, xaricdə yaşayan və antiazərbaycançı mərkəzlərin şər ruporuna çevrilən bir qrup insan bu üsulla ölkəmizdə sivil siyasi mübarizənin olmadığını qlobal ictimai rəyə təqdim etmək istəyir: "Bu isə, milli maraqlarımıza ziddir. Elə bu günlərdə Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov da bu məsələni diqqətə çəkərək, bir qrup insanın xaricdə milli maraqlarımıza zidd hərəkət etdiyini və bunun planlı şəkildə həyata keçirildiyini söyləmişdi. Görünür, hədəfi düzgün göstərdiyinə görə, Əli Həsənovun obyektiv və milli maraqlarımız baxımından, tamamilə haqlı olan fikirlərini elə həmin xaricdəki "ideoloji təxribat" qrupu manipulyasiya etməyə başladı. Məsələ xaricdə yaşayan bütün azərbaycanlıların mənafeyinə zidd kimi təqdim olundu".

Millət vəkili onu da bildirib ki, məqsəd isə kütləvi narazılıq yaratmaq cəhdi idi: "Ancaq həqiqət bu idi ki, Əli Həsənov, sadəcə, bir qrup anti-azərbaycançı ünsürlərdən danışmışdı. Əlbəttə, Azərbaycandan kənarda yaşayan çoxsaylı vətənpərvər və intellektual azərbaycanlılar həqiqətin, nə olduğunu dəqiq bilirlər. Ona görə də, islamofob marginalların qaralama kampaniyasına əsla inanmırlar. Nəticədə, bu marginallar özlərini bir daha ifşa etməklə kimə xidmət etdiklərini göstərmiş oldular və yenidən ictimai qınaq obyektinə çevrildilər".

# Səbail RİH "Qədim Roma təcrübəsi"ndən səmərəli istifadə edir - "Çörək və tamaşa"



***Ölkəmizin hər yerində Novruz bayramı ilə bağlı kütləvi bayram tədbirləri keçirilir. Belə bir ənənə Səbail rayonunda da möhtəşəmliklə qeyd olunub.***



Rayon icra hakimiyyətindən "SƏS" qəzetinə daxil olan məlumata görə, öz ənənələrinə sadiq qalan Səbail rayon icra hakimiyyəti xalqımızın ən əziz bayramlarından olan Novruz münasibəti ilə rayonun qəsəbələri və yaşayış sahələrinin bir çox yerlərində bayram tədbirləri təşkil edir, yerlərdə rayon sahibkarları və iş adamlarının köməyi ilə biri-birindən böyük bayram xonçaları quraşdırılır. "Bu ənənə bir növ qədim dövrlərə təsadüf edən "Çörək və tamaşa" kimi Roma ənənələrinə də bir qayıdış idi"-deyə qeyd edilən məlumatda bildirilir ki, rayonda təşkil olunan ənənəvi bayram tədbirlərində çəkisi 100 və daha çox olan xonçalar qurulub, Novruz personajları, tanınmış musiqi ifaçıları və özfəaliyyət nümayəndələrinin iştirakı ilə konsertlər təşkil olunub. Həmçinin, bildirilib ki, tədbirlərdən sonra isə xonçalardakı şirniyyat və meyvələr sakinlərə, imkansızlara və ərazidəki hərbi hissələrin əsgərlərinə paylanıb. "Bu da, öz növbəsində, sakinlər tərəfindən böyük maraqla qarşılanıb"-məlumatda qeyd olunub.

**R.RƏSULOV**

# Ermənistan rəsmi Bakının diplomatik fəallığından narahatdır

***Azərbaycanın uğurları, iqtisadi inkişafı, beynəlxalq miqyasda uğurlu strategiyası Ermənistan ictimaiyyətində narahatlıq doğurmaya bilməz. Ermənilər illərlə, hətta onilliklərlə beynəlxalq müstəvidə apardıqları antitəbliğatın və Azərbaycan əleyhinə fəaliyyətin nəticədə ölkəmizin nüfuzuna xələl gətirə bilməməsindən, dövlətimizin imicinin gündən-günə artmasından bərk narahatdırlar. Təbii ki, mənfur qonşularımız ölkəmizin uğurlarına sevinmir və bu uğurlara imza atan Azərbaycan hakimiyyətinin nailiyyətlərindən çox qıcıqlanırlar.***



Erməni mətbuat səhifələrində işğalçıların narahatlığı açıq şəkildə ifadə olunur ki, bu narahatlığın özü də başa düşüləndir. Yəni, təxminən bir əsrdən çox vaxt ərzində Azərbaycan əleyhinə fəaliyyət göstərən, düşmən mövqe sərgiləyən bir toplum üçün Azərbaycanın beynəlxalq müstəvidə qazandığı uğurlar, nəticədə artan imici, söz sahibi olması, digər nüfuzlu dünya dövlətlərilə mehriban dostluq və işgüzar münasibətləri ən böyük zərbə hesab oluna bilər ki, bu zərbənin təsiri erməni mətbuatında öz əksini tapır. Daha dəqiq desək, Ermənistanın "Jamanak" qəzetində dərc olun "Qafqaz oyunu mürəkkəbləşir" adlı məqalədə ermənilərin narahatlığını, təşvişini hiss etməmək mümkün deyil. Sözügedən məqalədə erməni tərəfinin Bakıda ağıllarına belə sığışmayan diplomatik fəallığın müşahidə olunmasından narahatlığı ifadə olunur.

Prezident İlham Əliyevin martın 15-də Türkiyənin Baş naziri Binəli Yıldırımın müşayiəti ilə onlarla ölkənin indiki və sabiq yüksək vəzifəli şəxslərinin də qatıldığı 6-cı Bakı Qlobal Forumunda iştirakı, forumda Qarabağ məsələsi ilə bağlı çıxışı və bunun erməni qəzetində doğurduğu narahatlıq hiss olunmaqdadır. Qəzetdə bu forumun nəticələrinin Ermənistan üçün təhlükələrindən geniş şəkildə bəhs olunur. Azərbaycan, Türkiyə, Gürcüstan və İranın xarici işlər nazirlərinin dördtərəfli formatda ilk görüşündən sonra qəbul edilən bəyannamədə tərəflərin bir-birinin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığının, regional münaqişələrin beynəlxalq hüquq əsasında sülh yolu ilə həllinin qeyd edilməsinin ən narahatedici məqam olduğu inkar edilə bilməz. Bəyannamədə Qarabağ məsələsinə birbaşa toxunulmasa da, rəsmi Bakının bu məqamdan istifadə edəcəyi, Ermənistanla dostluq edən İran və Gürcüstanın Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini dəstəkləyəcəyindən ermənilər daha çox narahatdırlar. Əslində, onların bu narahatlıqlarına yetərincə əsas var və Ermənistanı bütün regional iqtisadi layihələrdən təcrid etmiş Azərbaycanın ümumi paketə Qarabağ məsələsini də özünə sərfəli formada daxil edəcəyindən haqlı olaraq qorxurlar.

### Azərbaycan Ermənistanın regional təcrid olunmasını daha da gücləndirə bilib

Yüklərin İran, Azərbaycan, Gürcüstan və Ukrayna üzərindən Avropaya cəmi bir həftəyə nəqlini nəzərdə tutan 5 min km uzunluğundakı "Cənub-Qərb Nəqliyyat Dəhlizi"nin perspektivləri Ermənistan üçün arzuolunmazdır. Bu "Cənub-Qərb Nəqliyyat Dəhlizi"nin perspektivləri müzakirə edilən zaman İranın bu yeni formata, ələlxüsus, Təbrizə qədər uzanacaq Bakı-Tiflis-Qars dəmir yoluna tez inteqrasiya olunmaq istəyi ermənilər çaş-baş salıb. Azərbaycanın 2 böyük məqsədinə nail olması qənaətində olan işğalçı rejim üçün bundan böyük zərbə olmazdı. Onlar yaxşı başa düşürlər ki, Azərbaycan bu forumda, əvvəla, Qarabağ məsələsində öz mövqeyini digər dövlətlərin konsensus mövqeyi kimi təqdim edə bilibsə, digər tərəfdən də, Ermənistanın regional təcridolunmasını daha da gücləndirə bilib.

Azərbaycanın Türkiyə və Gürcüstanla hərbi əməkdaşlığının güclənməsindən, Rusiya və İsrail ilə hərbi-siyasi və hərbi-texniki əməkdaşlığın dərinləşdirməsindən narahat olmağa başlayan Ermənistan hakimiyyətinin bu sıraya İranın da qoşulmasından sonra ciddi təşviş keçirməsini başa düşmək çətin deyil. Bir müddət əvvəl İranın Müdafiə və Silahlı Qüvvələrə dəstək naziri Əmir Hatəminin Azərbaycanda hərbi və hərbi-texniki əməkdaşlığa dair müzakirələr aparması ermənilərin yuxularını ərşə çəkmişdisə, xarici işlər naziri Cavad Zərifinin dördtərəfli formatda iştirakı, artıq işğalçıların kürkünə birə də saldı. Bu baxımdan Ermənistan ictimaiyyətinin narahatlığı pik həddə çatıb və erməni mətbuat səhifələrində bu narahatlıq özünü təsdiq edir.

### Bakı Qlobal Forumu Azərbaycanın qüdrətini təsdiq etdi və ermənilər ölkəmizin tükənməz potensialının bir daha şahidi oldular

İşğalçılıq siyasəti, terrorçuluq əməlləri, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olmayan siyasəti ilə Ermənistan qonşu dövlətlərlə münasibətlərini arzu etmədiyi bir müstəviyə daşıdığının fərqindədir. Arzu etmədiyi bu müstəvidə marginallaşdığını çox yaxşı başa düşən Sarkisyan rejimi regionda təcrid olunduğunu da həzm edə bilmir. Ələlxüsus, müəllifi Azərbaycan olan qlobal və regional layihələrdən kənarda qalmasından qıcıqlanan ermənilər meydanda tək qaldıqlarını, Azərbaycanın hər bir sahədə dəfələrlə üstün olduğunu qəbul edə bilmirlər. Beynəlxalq hüquqa, norma və prinsiplərə, beynəlxalq təşkilatların qərar və qətnamələrinə, münaqişənin danışıqlar yolu ilə həllinə olan tələblərinə, çağırışlarına hörmətlə yanaşan Azərbaycanın bu norma və prinsiplərə etinasızlıq etdiyi təqdirdə, Ermənitan tərəfindən işğal və zəbt edilmiş torpaqlarını hərbi yolla geri qaytarmaq əzmində olduğunun hər dəfə şahidi olan işğalçıların təşvişi günü-gündən artmaqdadır. Məhz bu baxımdan, Ermənistan ictimaiyyətini qorxuya salan 6-cı Bakı Qlobal Forumunun əhəmiyyəti həm də ondan ibarət oldu ki, ermənilər Azərbaycanın qüdrətinin, hər bir sahədə uğurunun, tükənməz potensialının bir daha şahidi oldular.

Azərbaycanın işğalçı Ermənistanı təcridetmə siyasətinin uğurlu nəticələri göz qabağındadır və Sarkisyan rejiminin də bunu etiraf etməkdən başqa çarəsi yoxdur. Məhz erməni mətbuatında duyulan narahatlıqlar da bu etirafın real təzahürüdür. Bu reallıqlar isə, öz növbəsində, təsdiq edir ki, Azərbaycan doğru yoldadır və düzgün strateji siyasət yürüdür. Erməni lobbisinin və diasporunun, eləcə də, onların havadarlarının bütün əngəllərinə, yalan və fırıldaqlarına baxmayaraq, işğalçılar Azərbaycan kimi qüdrətli bir dövlətin potensialı ilə qarşı-qarşıya olduqlarının fərqindədirlər və bu səbəbdən, qorxuya düşüblər. Ermənistan ictimaiyyəti və Sarkisyanın işğalçı hakimiyyəti Ermənistanın Azərbaycan tərəfindən hərtərəfli olaraq küncə sıxışdırıldığının və çıxılmaz vəziyyətə salındığının fərqindədir. İşğalçılar çox yaxşı başa düşürlər ki, hər bir sahədə üstün olan Azərbaycan istənilən vaxt Ermənistanı dilemma qarşısında qoya, lazım gəldikdə, işğal altında olan torpaqlarını güc yolu ilə də geri qaytara bilər. Azərbaycanın strateji inkişafından narahatlıq keçirən ermənilərin ölkəmizin öz torpaqlarına sahib çıxmaq əzmində olmasından ehtiyatlanmaları, təşvişi onların zəifliyindən xəbər verir və bu tələşla məğubiyyətdən yaxa qurtarmaq mümkünsüzdür.

**İnam İMRANOĞLU**

# Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı yönələn "Yeva" filmi Türkiyədə qadağan edildi

***Ölkəmizin Baş Konsulluğunun müraciəti əsasında İstanbul Fransız Mərkəzinin təşkil etdiyi 16-cı Filmmor Beynəlxalq Qadın Filmləri Festivalında ermənilərin təxribat xarakterli filminin nümayişinin qarşısı alınıb***

Xəbər verildiyi kimi, bu il martın 17-də Türkiyənin İstanbul şəhərində keçirilən 16-cı Filmmor Beynəlxalq Qadın Filmləri Festivalında düşmən Ermənistanın yeni bir təxribatının qarşısı alınıb. Belə ki, sözügedən tarixdə İstanbul Fransız Mərkəzində nümayişi nəzərdə tutulan və düşmən ölkənin istehsalı olan "Yeva" adlı filmin nümayişinə qadağa qoyulub. Qeyd edilməlidir ki, İstanbul Baş Konsulluğumuzun apardığı araşdırmalardan məlum olub ki, sözügedən film ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlib və separatizmi dəstəkləyir. Türkiyədəki Baş Konsulluğumuz tərəfindən İstanbul Valiliyinə təqdim olunan faktlar əsasında şəhər Valiliyi və Türkiyə



Xarici İşlər Nazirliyi tərəfindən İstanbul Fransız Mərkəzinə müraciət olunub və yazılı qadağa əmri təqdim edilib. Bildirilib ki, bu film, nəinki adıçəkilən festivalda, ümumiyyətlə, Türkiyə Respublikasında nümayiş oluna bilməz. Səbəb isə həmin filmin reallığı əks etdirməməsi, həmin filmdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təhdid altına alınması və separatizmin dəstəklənməsidir.

Məsələ ilə bağlı artıq Türkiyə mətbuatında geniş məlumatlar dərc olunub. Belə ki, qardaş ölkənin aparıcı media strukturları, internet portalları və qəzetlər, eləcə də, digər internet resurslarında erməni təxribatının qarşısının alınması, Azərbaycanın işğal altında olan torpaqlarına, ərazi bütövlüyünə hörmətsizliyin nümayiş etdirildiyi filmin nümayiş olunmayacağı ilə bağlı informasiyalar yer alıb.

**ZÜMRÜD**

# Siyasi ölüm sonatası - İFAÇI KİMDİR?



11 aprel prezident seçkilərinə sayılacaq günlər qalır və bu dəfə istər radikal, dağıdıcı, istərsə də aqressiv adlandırılan siyasi dəllallar yığnağı - sözdə müxalifət "boykot" deyilən səmərəsiz taktikadan istifadə etməklə, guya siyasi gündəmi dəyişdirmək məqsədini daşıyır. Halbuki Azərbaycanda baş tutacaq demokratik seçkilərə artıq xarici siyasət adamları, nüfuzlu politoloqlar tərəfindən da kifayət qədər müsbət rəylər verilib. Maraqlısı da budur ki, hələ 2013-cü ildə prezident seçkisinə qatılmış Əli Kərimlinin siyasi kuklası Cəmil Həsənli təbliğat-təşviqat kampaniyalarında danışanda, "ağzına çullu dovşan yerləşmirdisə", bu gün də eyni hal təkrarlanır, amma...

Amma bu dəfə başqa formada - "boykot" şəklində. Bu zaman belə bir sual yaranır ki, əgər sizlər Azərbaycan hakimiyyətinin legitimliyinə, qanunların aliliyinə şübhə ilə yanaşırsınızsa, nəyə görə hər seçkidən bir gah bu, gah da digər "taktikalarla" gündəmdə qalmaq üçün səs-küy yaradırsınız? Artıq uzun illər xidmət göstərdiyiniz xarici dairələr də sizlərin belə "siyasətinizdən" əməllicə çaş-baş qalıblar. Necə deyərlər, irəli sürülən hər bir fikrin əsasından sifariş və öhdəçilik qoxusu gəlir...

Başqa tərəfdən, seçkilərə qatılmaq fikrinizdən vaz keçmisinizsə, bəs onda sosial şəbəkələrdəki müxtəlif adlarda fəaliyyət göstərən səhifələrinizdə ləyaqətə, milli-mənəvi dəyərlərə, nə də ki, azərbaycanlıya xas olmayan digər rüsvayçılıqlar arxasından niyə sizlərin adları çıxır? Ə.Kərimli, C.Həsənli, G.Hacıbəyli, O.Gülalıyev və s...Axı o da sirr deyil ki, bu gün Orduxanlar və başqalarının sərgilədikləri təlxəklik obrazlarını sizlər də dəstəkləyirsiniz! Əgər sizlərdə, az da olsa, insani dəyərlərə hörmət hissləri qalsaydı, ən azından, bu cür iyrənc oyunbazlıqlara son qoyulmasını tələb edərdiniz. Ancaq bunu etmirsiniz, çünki siyasi mübarizə kontekstində və s. sahələrdə uduzduğunuzun fərqinə dərindən varmısınız. Ona görə də, "seçkilərə getmirik-getmirik, barı məğlubiyyətimizi dövlətə, hakimiyyətə, xalqa, ölkə maraqlarına həqarətlər etdirə-etdirə pərdələyək" tipli "prinsipləriniz" sayəsində əsl "simanızı" ortalığa çıxarırsınız!

Bütün bunlar barədə düşündükcə, qənaətlərə gəldikcə, qaragüruhçuluq əsasında formalaşmış və meydan təfəkkürünə Avropa xəyanətini də qatıb, mənəviyyatsızlıq kokteyli düzəltmiş siyasi qozbelləri "liderləri", bununla sübut edirlər ki, istər seçkilərə qatıldıqları zaman, istərsə də əksinə olduqda, onlar iqtidara qarşı mübarizədə alternativ proqrama və platformaya malik deyillər. Yalnız iqtidarın fəaliyyətini ucdantutma qaralama və təhqiretmə məqsədini reallaşdırmaqdan başqa isə yolları yoxdur. Bu baxımdan, siyasi şüur səviyyəsi kifayət qədər yüksək olan Azərbaycan seçicisi doğru ilə yalanı, utopiya ilə reallığı bir-birindən ayıra bilməklə yanaşı, belə siyasətbazların hansı "təfəkkürə" malik olduğunu da yaxşı bilir. Lakin bu da son deyil...

Bu gün özlərini "ağıllı-kamallı" göstərib, mitiqnlərdə bar-bar bağıran "liderlər" bu vaxtadək, yəni seçki dövründən başqa, insanlarla görüşdüklərini xatırlayırlarmı? Xalqın və vətəndaşların problemləri ilə maraqlanıblarmı, onların həlli istiqamətində təşəbbüs göstəriblərmi? Əlbəttə ki, yox. Onlar yalnız seçki dövründə xalqla ünsiyyətə girməyə cəhdlər edirlər ki, onda da xalq bələlərini qəbul etmir, əksinə, rədd edir. Bu dəfə də belə oldu. Ancaq sonuncu dəfə. Çünki təhqirdən başqa "arqumenti" olmayanların siyasi ölüm sonatasının son notları çalınır və axırıncı akkordları vurulur. Bu sonatanı ifa edənlər də, elə bu qaragüruhçu dəstənin həm buradakı, həm də Avropadakı ünsürləridirlər...

**RÖVŞƏN**

# "Əxlaqdan kənar vasitələrə əl atırlar"

*"MSK bu məsələni araşdırmalı, namizədə xəbərdar etməli, lazım gələrsə, namizədliyi ləğv edilməlidir"*

**Seçkilərin təbliğat-təşviqat kampaniyası ilə bağlı teledebatlar təşkil olunur. Teledebatlarda bəzi namizədlər etik qaydaları pozur, şər və böhtan səsləndirir, həqiqəti əks etdirməyən, reallıqdan uzaq olan iddialar, ittihamlar səsləndirirlər. Təbii ki, bu Seçki Məcəlləsinin kobud şəkildə pozulmasıdır. Söhbət etdiyimiz müsahiblərimiz Seçki Məcəlləsinin tələblərini pozan namizədlər haqqında MSK-nın tədbirlər görə biləcəyini söylədilər.**



## AMİP funksioneri Əli Orucov:

- Seçki kampaniyası heç kəsə imkan vermir ki, fürsətdən sui- istifadə edərək, etik qaydalardan kənara çıxsın və kimləri isə təhqir eləsin. Əlbəttə, buna yol vermək olmaz. Etik qaydaları pozan şəxslər özünün tərbiyəsini göstərmiş olur. Yəni cəmiyyətə hörmətsizliyini göstərir. Bir sözlə, belə şeylərə qəti şəkildə yol vermək olmaz. Təbliğat vasitələrində imkan ona görə verilir ki, namizəd öz platformasını, komandasını, proqramını xalqa çatdırsın, seçiciləri öz tərəfinə çəkməyə və səsverməyə inandırsın. Bu baxımdan da, namizədlər maksimum bu fürsətdən öz səslərinin, öz seçicilərinin tərəfdarlarını artırmaq üçün istifadə etməlidirlər. Ümumiyyətlə, təəssüflər olsun ki, son dövrlər siyasətçilər tərəfindən müxtəlif qəzetlərdə, saytlarda və sosial şəbəkələrdə təhqir elementlərini biz görürük. Bu da siyasətçi adına iddia edən şəxsə heç də başucalığı gətirmir, əksinə, onu gözdən salır. Siyasətçi, ilk növbədə, özünü nümunəvi aparmalıdır. Yəni belə deyək ki, onlar xalqın seçilmiş şəxsləri olduğu kimi, o cümlədən, onların hərəkətləri də, davranışları da cəmiyyət üçün nümunə olmalıdır.



## Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov:

- Prezidentliyə namizədlər artıq təşviqat kampaniyasına başlamışlar və bir neçə teledebatda artıq onların fikirləri ilə seçicilər tanış olmuşlar. Bu teledebatlarda bəzi namizədlər öz platformaları ətrafında danışmaqdansa, ucuz variantlara əl ataraq, populist çıxışlar, faktlara söykənməyən iddialar, bəzən isə əxlaqdan kənar vasitələrə əl atırlar. Hesab edirəm ki, bu cür hallar yolverilməzdir. Namizəd olmaq o demək deyildir ki, sən nə istəyirsən, danışa bilərsən. Şər böhtan və əxlaqsız hərəkətlər etmək, kimliyindən asılı olmayaraq, yolverilməzdir. Qanunvericiliyə uyğun olaraq, bu cür hallara qarşı ciddi ölçü götürülməlidir. MSK bu məsələni araşdırmalı, onu xəbərdar etməli, lazım gələrsə, namizədliyi ləğv edilməlidir.

**GÜLYANƏ**

# Müxalifətin zayı çıxıb



***Dağıdıcı müxalifət xarici himayədarlarının göstərişlərinə əsasən, boş və mənasız aksiyalar keçirməkdən yorulmurlar. Görünən isə odur ki, bu aksiyalar nəzərlərində tutduqları kimi alınmır və iflasa uğrayır. Bunun sübutu olaraq, martın 10-da "Milli Şura"nın rüsvayçılıqla nəticələnən "mitinq"ini göstərmək olar. Bu kimi anormal aksiyalar onu deməyə əsas verir ki, dağıdıcı müxalif ünsürlər Azərbaycanın dünyada artan nüfuzundan ciddi narahatlıq keçirir və bir sıra anti-Azərbaycan qüvvələrin maraqlarından çıxış etməklə, ermənipərəst mövqeyə malik olduqlarını nümayiş etdirirlər.***

Radikallar anti-Azərbaycan mövqeli məkrli təşkilatlardan maliyyə vəsaiti alaraq, bəzi yersiz və mənasız layihələr həyata keçirməyə cəhd göstərirlər. Dağıdıcı müxalifət xalqın 11 aprel prezident seçkilərinə böyük əhvali-ruhiyyə ilə getdiyini anladığından, xaricdəki məkrli qüvvələrin təlimatına uyğun olaraq, mini-aksiyalar vasitəsi ilə təxribatlar törətməyə cəhd göstərirlər. Onlar bu metodun işə yaramadığını anlasalar da, xaricdən aldıqları pulların əvəzini ödəmək üçün başqa vasitə görmürlər. Araşdırmalara əsasən da, demək olar ki, aksiyalarda iştirak etmək üçün ətraflarına yığdıqları insanların siyasi ideyaya bağlılıqları yoxdur. Onlar 10 manat pula görə mini-aksiyalara gəlirlər. Hətta onlar mitinqə niyə gəldiklərini belə başa düşmürlər. Nəzərə almaq lazımdır ki, hər zaman dağıdıcı ünsürlər həm seçkidən öncə, həm də sonra "canlanmağa" başlayır. Amma bütün bunların heç bir nəticə vermədiyini də gözəl bilirlər. Əminliklə demək olar ki, Azərbaycandakı dağıdıcı xislətli müxalifət partiyalarının elektoratı yoxdur. Olmuş olsaydı, 5-10 manata muzdlu mitinqçi təşkil etməz və bununla da xarici məkrli havadarlarının tapşırıqlarını yerinə yetirməyə cəhd göstərməzdirlər. Bu kimi mövcud faktla yanaşı, dağıdıcı müxalifətin özünün müstəqil fikri və fəaliyyəti də yoxdur. Çünki onların ipi Avropadakı, eləcə də, okeanın o tayında olan qüvvələrin əlindədir və nəsə etmək lazım gələrsə, tapşırıq oradan verilir. Ona görə də, həmişə olduğu kimi, bütün tədbirləri uğursuzluqla nəticələnir.

**AFƏT**


## Optik internet, rəqəmsal TV və mobil rabitə xidmətləri bir "Qutu"-da




"Nar" istifadəçilərin xərcləri və vaxtına qənaət etmək imkanı verən "Qutu" təklifini yenilədi. "Qutu" özündə ev üçün fiber-optik internet, rəqəmsal TV və mobil rabitə üçün ölkədaxili bütün istiqamətlərə danışıq dəqiqələri təqdim edən, mobil internet xidmətlərini birləşdirən unikal təklifdir. 22 AZN-dən başlayan yenilənmiş "Qutu" paketlərinə tarifdaxili dəqiqə bonusları əlavə olunaraq ölkədaxili bütün istiqamətlərə zənglər üçün 1000 dəqiqəyədək danışıq, 3 GB-dək mobil internet və sürəti 40 MB-dək olan optik internet təqdim edilir. "Basic" paketinə daxil olan TV kanalların sayı 200-dək artırılmış və 40 HD kanal əlavə edilmişdir. Yenilənmiş "Qutu" paketlərindən yararlanmaqla istifadəçilər artıq rabitə xərclərinə 70%-dək qənaət edəcəklər.

"Qutu" təklifi hər bir istifadəçiyə ona uyğun olan paketi seçmək imkanı yaradır. Yenilənmiş təkliflərdən yararlanmaq, əhatə dairəsi haqqında məlumat almaq və onlayn sifariş üçün qutu.nar.az saytına daxil olmaq kifayətdir. Qeyd edək ki, "Qutu" təklifi "Nar" və "CityNet" provayderi tərəfindən təqdim olunur. "Qutu" Azərbaycanın rabitə bazarında optik internet, rəqəmsal TV və mobil rabitə xidmətlərinin bir paketdə təqdim edildiyi ilk təklifdir.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Müsavatın rayon müşavirələri fiaskoya uğradı

## Mitinq məsələsində də ziddiyyətli fikirlər yaranıb

MÜSAVAT

***AXCP-"Milli Şura" cütlüyünün sonuncu biabırçı mitinqinin ardınca, həmin aksiyaya qatılan Müsavat partiyasının bir sıra üzvləri bu ayın sonu üçün keçirilməsi planlaşdırılan növbəti mitinqdə iştirak etməkdə tərəddüdlü olduqlarını ifadə ediblər.***

### Müsavat başqanı müavinlərinə nəyi tapşırıb?

Bu günlərdə Müsavatın Salyan, Şirvan və Hacıqabul təşkilatlarında zona müşavirələri keçirilsə də, həmin tədbirlərə iştirak edən bir sıra müsavatçılar AXCP-"Milli Şura" cütlüyünün mitinqlərinə qatılmamağı, partiyanın ayrılıqda aksiya keçirməli olduqlarını tələb olaraq irəli sürüblər. Mənbə qeyd edib ki, müşavirələri başqan müavini Razim Əmiraslanlı aparıb və o da, öz növbəsində, baş verənləri Arif Hacılıya çatdırıb.

Müşavirələrdə ziddiyyətlərin yaşandığını A.Hacılının digər səlahiyyətli şəxsləri - Müsavatın departament müdiri Söhrab Məhərrəmli, eləcə də, müsavatçı Sadiq Abdullayev də etiraf ediblər. Mənbəyə görə, onlara bu barədə mediada, ya da sosial şəbəkədə fikir bildirməmələri barədə ayrıca tapşırıqlar verilib.

### İrəli sürülən tələblər isə təxminən bu cür olub:

**1.** Müsavat partiyası "Milli Şura"nın mitinqlərində rəsmi təşkilatçı olmadığına görə, aksiyada iştirak edən müsavatçılar dolayı yolla AXCP sədri Əli Kərimlinin siyasi dividendinə xal qazandırır, onun müxalifətin "lideri" olduğunu qəbul edirlər.

**2.** Əgər Müsavat partiyası "seçkiləri boykot" qərarı verməyibsə və seçkilərə qatılmaq istəyən partiya üzvlərinə qərar baxımından sərbəstlik verilibsə, bu cür mitinqlərə qatılmağın heç bir faydası yoxdur.

**3.** "Milli Şura"nın mitinqlərində Müsavat yetkililəri arasında söz haqqının yalnız Arif Hacılıya verilməsi digər siyasi qurumların bu partiyadan, sadəcə, öz məqsədləri üçün istifadə etdikləri anlaşılır.

Onu da qeyd edək ki, bir sıra narazı müsavatçılar, xüsusilə, uzun illərdir ki, bu partiyada fəaliyyət göstərənlər bənzər məsələlərdə sabiq başqan İsa Qəmbərin də mövqe bildirməli olduğunu deyiblər.

### Ziddiyyətli mövqelər niyə artır?

İ.Qəmbərin ağır xəstə olduğunu əsas gətirən partiya rəhbərliyi, bu səbəbdən sabiq başqanın mövqe bildirmədiyini deyir. Bu zaman A.Hacılının daha qabaqkı fikirlərinin təzadlı olduğu üzə çıxır. Daha dəqiq desək, gah İ.Qəmbərin sağlıq durumunun yaxşıya doğru getdiyini deyən Hacılı, digər tərəfdən, İ.Qəmbərin bəlli məsələlərə münasibət göstərmək vəziyyətində olmadığını bildirir. Bu kimi çıxışlar isə, narazı müsavatçılar arasında ziddiyyətli mövqeləri daha da artırır.

Beləliklə, Müsavatın rayon müşavirələrinin "baş tutması" ətrafında bəyanatlar verən partiya səlahiyyətliləri, əslində, daxili situasiyada nələrin baş verdiyini gizlətmələri ilə vəziyyətin daha da mürəkkəbləşməsinə səbəb olublar. Bu baxımdan, AXCP-"Milli Şura" cütlüyünün mitinqlərinə öncəkindən daha az müsavatçıların qatılacağını demək olar. Hətta A.Hacılıya həmin mitinqlərdə söz demək haqqı növbəti dəfə tanınsa belə, ona dəstək verə biləcək müsavatçıların çox cüzi olacağını bəri başdan proqnozlaşdırmaq mümkündür.

### Arif Hacılının və İsa Qəmbərin partiyanı Əli Kərimlinin ayağına verdikləri bildirilir

Yeri gəlmişkən, narazılar, eyni zamanda, AXCP-"Milli Şura" cütlüyünün hələ ötənilki aksiyalarına partiya rəhbərliyinin şəxsi təşəbbüs xarakterində qatıldığını və bunun müqabilində tribunaya dəvət edilmədiklərini də xatırladaraq, A.Hacılının, eləcə də, İ.Qəmbərin partiyanı Ə.Kərimlinin ayağına verdiklərini kəskin etirazlarla bildirirlər. Bu olaylar isə, seçkilərə qədər Müsavatın növbəti dəfə parçalanacağı reallığını daha açıq fonda göz önünə sərir.

***Rövşən RƏSULOV***

# Təhmasib Novruzov: "Xaricdə oturub Azərbaycana qarşı zərərli fəaliyyətlə məşğul olmaq nakişilikdir"



**Özlərini virtual aləmin "qəhrəmanı" hesab edən bir neçə xarici ölkədə məskunlaşan dağıdıcı müxalifətin törtöküntüsü Azərbaycan əleyhinə antitəbliğat kampaniyası aparırlar.** Bu isə, ölkə ictimaiyyəti tərəfindən haqlı narazılıqla qarşılanır. Ziyalılar, partiya sədrləri, Milli Məclisin deputatları, QHT təmsilçiləri xaricdə oturub sosial şəbəkələr vasitəsilə Azərbaycan xalqının ünvanına təhqiramiz ifadələr səsləndirənlərin əməllərini qətiyyətlə pisləyirlər. Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, xaricdə oturub Azərbaycana qarşı zərərli fəaliyyətlə məşğul olmaq nakişilikdir: "Həmin adamların xaricdə oturaraq, sosial şəbəkələrdə ölkəmizin imicinə toxunan hərəkətlərə əl atmaları, bir daha sübut edir ki, onlar özlərini pul qarşılığında xarici qüvvələrə satıblar. Belə olan halda da, xarici "ağaları" nə hava çalsa, onlarda o havada oynayırlar. Radikal müxalifət deyilənlərin liderlərindən biri olan AXCP sədri Ə.Kərimlinin oğlu separatçı Qarabağ rejiminin banda başçısı Bako Saakyanın oğlu ilə qoşa oturub, xaricdə məsələ müzakirə edir, kişilik budurmu? Yoxsa Azərbaycan dövlətinin son 20 ildə ki, inkişafını görməməzlikdən gəlib bu inkişafa qara yaxmaqdırmı, kişilik? Yəni heç kəsə lazım olmayan boş-boş mitinqlərə toplaşıb yalandan hay-küy qaldırıb, reallığı özündə əks etdirməyən fikirlər səsləndirməklə, onlar nə əldə edəcəklər? Onsuz da xalq müxalifətin necə olduğunu, kim olduğunu daha yaxşı bilir. Sadəcə olaraq, müxalifət bu gün boş qalan ciblərini doldurmaq üçün dəridən-qabıqdan çıxır".

T.Novruzovun sözlərinə görə, erməni lobbisinin əlində oyuncağa çevrilmiş xarici qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq üçün bu gün ölkə müxalifətindən bir alət kimi istifadə edir: "Amma onların nə etməsindən və nə deməsindən asılı olmayaraq, heç vaxt - istər xarici qüvvələr, istərsə də müxalifət bu istəklərinə çatmayacaqdır. Çünki müxalifətçilə, məhz bu cür yesiz hərəkətləri ilə tamamilə xalqın gözündən düşüblər. Xaricdə olan həmin şəxslərin ağılları topuqlarındadır. İt-küçük yığnağıdır".

***GÜLYANƏ***

## Millətini satanlar

Avropada züytutanlar dəstəsi,
Orduxandı, Məhəmməddi xəstəsi,
Söyüş-qarğış musiqisi, bəstəsi,
Soros dürtür ciblərinə dollar, dürr,
Üzlərinə bütün millət tüpürür.

Vidadi də basa bilmir səbrini,
Qudurubdu, pozmur azca tövrünü,
Murdar sayır dədəsinin qəbrini,
Elə bilir zövqlü, kübar adamdı,
Ancaq çuğul, satqın, murdar adamdı.

Tural Sadıqlı da içiboş qabdı,
Düşmənin dostuna-daşnaka babdı,
O, xalis bədəməl, başdan xarabdı,
İçini toz basmış paslı borudu,
Dostları erməni diasporudu.

Əvvəl bir-bir qoşuldular bir gicə,
İlişdilər avro kəsən ülgücə,
Xalqa dönük Sevinc, Leyla, Xədicə,
Bu qancıqlar döndü yad daşlarına,
Hər birinin kül olsun başlarına.

***VALEH***



**"Üzünü məndən nihan etmək dilərsən, etməgil!"**

**AFƏT**

***İndi də yadıma düşəndə, gülməyim tutur. Ötən əsrin 80-ci illərində Yasamalda "Sevil" kinoteatrı vardı. Demək olar ki, hər gün bir neçə seans Hindistan filmi nümayiş edilərdi. Biz də sinfimizlə sözü bir yerə qoyub, hər həftə həmin filmlərdən hansınasa baxmağa gedərdik. Amma orasını da xüsusi qeyd edim ki, ağlamaqdan filmə necə baxdığımızı düz-əməlli bilmirdik. Filmin təsirindən zalda bir ağlaşma olardı ki, gəl-görəsən.***

Bunu bildiyimizdən, əl dəsmalsız filmə baxmağa getməzdik. Deyirəm, vaxtilə filmlər də çəkilib ha. Bilmirəm, zamanzaman filmlərin süjet xəttinin çəkimindəndimi, yoxsa insanların dəyişməyindəndimi, get-gedə hər şey fərqli olub. Vaxtilə hind filmlərinə baxıb, oğlanlar saçlarını Ciminin saçları kimi ayırar və o formada darayardılar, özlərini və geyimlərini ona bənzətməyə çalışardılar. Amma di gəl indi...

Məncə, indi də bu bənzətmələr davam edir. Kimisi özünü Çakıra, kimisi Polat Alemdara, kimisi Mematiyə, kimisi də nə bilim, kimlərə bənzətməyə çalışır. O gün sosial şəbəkələrdə bir qrup adını azərbaycanlı qoyan və müxalif qüvvələrin söyüş qrupu rolunda çıxış edən şəxslər, üzlərinə maska taxaraq ABŞ-ın Vaşinqton şəhərində etiraz aksiyaları keçirdiklərinin şahidi oldum. O dəqiqə 1994-cü ildə Amerikada çəkilmiş "Maska" filmini yadıma düşdü. Baş rolun ifaçısı Cim Kerrinin çıxardığı oyunlar gözümün qarşısında canlandı. Onun da "maska"sı daim gülürdü. Üstünə silah belə çəkiləndə, onu gülüşlə qarşılayırdı. Həmin bu aksiya keçirənlərin də maskaların gülməyi həmin filmi xatırlatdı. Fikirləşdim ki, yəqin bunlar da özlərini "Maska" filminin qəhrəmanına oxşadıblar. Deyirəm, bu Amerika nə əcəb belə aksiya keçirməyə icazə verir, görən? Guya hər şeyə son dərəcə diqqətlə yanaşan Amerika, maska altında hansı simaların gizləndiyini hardan biləcək ki? Belə də baxanda, tutaq ki, onların hər hansı biri təxribata əl atmış olsaydı, kim nə biləcəkdi ki, təxribatı hansı edib? Çünki hamısı eyni maska, hamısı da ətrafdan keçənlərin üzünə baxıb, arsız-arsız gülür. Amma öz aramızdı, simasızlıqlarını maska altında gizlədənlərdən nə desən, gözləmək olar. Adama deyərlər ki, qorxursan pişikdən, niyə çıxırsan deşikdən? İndi də ay maskalılar, aksiya keçirirsiniz, özünüz bilərsiniz, bəs yaxşı, bu maska taxmaq nəyə lazımdı? Sözünün, hərəkətinin arxasında dayanan maska taxmaz. Bu yerdə İmadəddin Nəsiminin bir misrası yadıma düşdü: "Üzünü məndən nihan etmək dilərsən, etməgil!" Amma neyləmək olar ki, bunlar qorxularından üzlərini nihan etməkdədirlər.

TƏRS BAXIŞ

*Özünü gah "milli azadlıq hərəkatının" təmsilçisi, gah "hüquq müdafiəçisi", gah da müxalifətin "aparıcı siması" kimi təqdim etməyə çalışan və "siyasi mühacir" adı altında Avropada müəyyən anti-Azərbaycan qüvvələrə işləyən Vidadi İsgəndərlinin bəlli "müdafiəçiləri"nə baxarkən, ilk öncə, onların həqiqət korları olduqlarını demək mümkündür. Niyə məhz həqiqət korları? Məsələ ondadır ki, V.İsgəndərlinin bəlli videosüjet ətrafında siyasi, eləcə də, iyrənc manipulyasiyalar etməsi sonda onun doğma atasının (!) məzarından sui-istifadəsinin, bilavasitə təsdiqi oldu. Məsələ ondadır ki, Avropada oturaraq, sözügedən təxribatçı videoroliki əlində "bayraq" edib həmin hadisəni zorla "iqtidarın planı" şəklində ictimai rəyə sırımaq cəhdləri də, məhz bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmış oldu.*



# Vidadi İsgəndərlinin "müdafiəçiləri"

## *Yaxud həqiqət korları*

### Təkcə bu fakt belə deməyə əsas yaradır ki...

Hətta videorolikin çəkildiyi qəbiristanlığın V.İsgəndərlinin yurdu olan Göyçay rayonunun Məlikkənd kəndində çəkilmədiyi tam olaraq təsdiqləndi. Ən azından, həmin kəndin sakinləri - ziyalıları, ağsaqqalları, sadə zəhmət adamları onun atasının qəbri qarşısında çıxış edərək, bildirdilər ki, videorolikdə xristian dininə mənsub qəbirlər görünür və Məlikkənd ərazisində yerləşən iki qəbiristanlığın heç birində digər dinin təmsilçilərinə aid olan məzarlar, ümumiyyətlə, mövcud deyil. Təkcə bu fakt, belə deməyə əsas yaradır ki, V.İsgəndərlinin haray-şivənçilik saldığı və bu vasitə ilə hakimiyyətə həqarətlər, təhqirlər yağdırması, sadəcə, sui-istifadədir, özü də heç bir milli-mənəvi və əxlaqi dəyərlərə sığmayan sui-istifadə!

V.İsgəndərlinin "şəxsi keyfiyyətləri" barədə uzun-uzadı danışmağa da lüzum yoxdur, çünki onun neçə məxluq, yaxud ünsür olması artıq bütün çılpaqlığı ilə sübuta yetirildi. Ancaq bu məsələdə düşündürücü digər bir nüans da var...

### Bənzər addıma gedəcək qədər ucuz fərdlər toplumu

Həmin nüans V.İsgəndərlinin "müdafiəçiləri" qismində çıxış edənlərin sosial şəbəkə və müxalifət mediasında, necə deyərlər, ondan da betər şəkildə "şalvarlarını başlarına çəkmələridir". Niyəsi isə məlumdur - həmin situasiyadan istifadə edib, siyasi maraqlarını təmin etmək, seçkiöncəsi mühitdə Azərbaycan xalqının, dövlət maraqlarının və s. faktorların üzərinə şər-böhtanlar yağdırmaq. Yazının əvvəlində qeyd etdiyimiz kimi, belələrinə həqiqət korları deməyin tam yeridir. Çünki belə bir hadisənin hakimiyyət tərəfindən edilmədiyi sübutu ortaya qoyulsa belə, bu kimi həqiqət korları görməzlikdən gəlməkdə davam edəcəklər. Olan isə, əlbəttə ki, özlərinə olur. Necə ki, V.İsgəndərli doğma atasının məzarı üzərində siyasi oyunbazlıq elədisə, onun "müdafiəçilərinin" də bənzər addıma gedəcək qədər ucuz fərdlər toplumu olduğu tam şəkildə sübuta yetirildi...

**Rövşən NURƏDDİNOĞLU**

---

# Əli Kərimli siyasi intihar astanasında

*Sirr deyil ki, Azərbaycan müxalifəti son illərdə tamamilə zəifləyib, hətta müxalifətlə xalq arasında dərin bir uçurum yaranıb. Bunu son illərdə ölkə daxilində cərəyan edən proseslərdən görmək mümkün deyil. Təkcə müxalifətin təşkil etdiyi aksiyaya bənzər mitinqlər belə, bu fikri isbatlayır və görürük ki, keçirdikləri mitinqlərə öz tərəfdarlarından, qohum-əqrəbalarından başqa kimsə gəlmir. Bu da xalqın müxalif düşərgəyə olan inamsızlığının təzahürüdür. Hətta bir neçə partiyanın birgə keçirdiyi aksiyada belə müxalifət cəmiyyətdən dəstək ala bilmir.*



Cəmiyyətdən dəstək ala bilmələri üçün, təbii ki, cəmiyyətin inamını qazanmaları mütləq şərtdir. Boş söz yığını, iftiralar, yalanlar, böhtan xarakterli çıxışlar, xalqa deyil, xarici havadarlarına sığınmaq, onların maliyyəsindən asılı vəziyyətdə fəaliyyət göstərməklə bu inamı və etibarı qazana biləcəkləri mümkünsüzdür. Çünki xalq yaxşı başa düşür ki, Azərbaycanın əleyhinə çalışan qurumlar, fondlar, lobbilər və təşkilatların dəstəyi ilə fəaliyyət göstərən müxalifət xalqın maraqlarını deyil, onları maliyyələşdirən qurumların mövqeyini müdafiyə edəcək. Bir sözlə, ictimaiyyətə bəllidir ki, radikallar ölkə daxilində iğtişaşlar yaratmaq, demokratiya pərdəsi altında narazılıqlara yol açmaq və digər bu qəbildən olan xarici ssenarilərin reallaşdırılması müqabilində xarici havadarlarından vəsaitlər alır və nəticə etibarı ilə, yalnız onlara xidmət edirlər.

### Əli Kərimlinin dilənçilik strategiyası və şəxsi mənafeyi naminə xəyanətkar mövqeyi göz qabağındadır

Radikal müxalifət partiyalarının ölkənin siyasi həyatında heç bir rola malik olmadıqları günümüzün inkarolunmaz reallığıdır və bunların ölkənin inkişafı ilə bağlı hər hansı təşəbbüslə çıxış etdiyinin şahidi olan yoxdur. Yalnız xarici maraq qruplarından aldıqları maddi dəstək və qeyri-real vədlər qarşılığında partiyaçılıq oyunu oynayan radikal oyunbazların Azərbaycan xalqının iradəsi ilə heç bir əlaqəsi ola bilməz. Məhz AXCP sədri Əli Kərimlinin hazırkı fəaliyyəti, bu mənada, xarakterikdir. Onun xarici havadarların əlinə baxan dilənçilik strategiyası və şəxsi mənafeyi, vəsait əldə etmək naminə satqınçılıq mövqeyi göz qabağındadır. Bu mövqeyi onu xəyanətə də sürükləyir, hər cür çirkin əməllərə də.

Başda AXCP sədri olmaqla, bu oyunbazların siyasi səhnədə varlığı sual altında qaldığı üçün hər biri, öz növbəsində, mövcudluğunu qorumaq məqsədi ilə fəaliyyəti real müstəvidən virtual aləmə transfer etməyi çıxış yolu hesab etsələr də, niyyətlərinə müvafiq olaraq əməlləri yenə də çirkabla doludur. Kifayət qədər imkanlar vəd edən təşviqat platformasından istifadə etməklə və bir sözlə, mövcudluğunu yalnız sosial şəbəkələrdə fəaliyyət göstərməklə qorumağa çalışanların virtual mübarizələri də qəbul olunmayan, qeyri-etik və əxlaq normalarından uzaq davranışlarla müşahidə edilir. Həm AXCP, həm də Müsavatın əli ilə xaricə saxta sənədlərlə göndərilən və onlar tərəfindən təyinatlandırılan mühacirlərin də ictimaiyyətə bəlli olan qeyri-etik davranışları müxalifət əxlaqsızlıq məktəbinin tərənnümünə çevrildi. Siyasi səhnədə görünməyən və nəinki savadı, hətta əxlaqı belə olmayanların küçə və meydanlarda tərbiyəsizlik nümayiş etdirmələri təkcə Azərbaycan ictimaiyyəti deyil, həm də yaşadıqları ölkə vətəndaşları arasında da xoş qarşılana bilməz. Bu qeyri-etik davranışlar yalnız əxlaqsızlığın təzahürü ola bilər və Məhəmməd Mirzəlinin şərəfsizliyi özü üçün normal qəbul etdiyini söyləyərkən, bunun da şahidi olduq ki, şərəfsizliyə aparan bu əxlaqsız yolda tək deyil və onun Orduxan Teymurxan, Tural Sadıxlı kimi dostları da var. Amma bu dostların başında Kərimli kimi bir şoumen-dirijor durur ki, şərəf məsələsində nə yaxşıdan bir addım irəli düşür, nə də pisdən geri qalır. Əksinə, ilana zəhər verən kərtənkələ misalında hər xəyanətin, satqınlığın, şərəfsizliyin ideya müəllifi və rəhbəri olduğu ortaya çıxır. Bəlli olur ki, dövlət atributlarını, ölkə simvollarını təhqir edən şərəfsiz və onun dostları tapşırıqlarını Soros kimi iblislərin maliyyəsi ilə fəaliyyət göstərən və şeytanla belə əməkdaşlıq edə bilən Kərimlidən alır. Mənşəyi iblisin büdcəsinə calanan maliyyə resurslarına göz dikən mühacir şeytanlar Kərimlinin şoumenliyinə, aksiyalarındakı və çıxışlarındakı illüziyalarına, dolayısı ilə maliyyə vəsaitlərinin, çirkli pulların əldə olunmasına ümid edərək xarici ölkələrdə tərbiyəsizliklə, qeyri-etik davranışla müşayiət olunan fəaliyyətlə məşğul olurlar.

### Havadarları nə Əli Kərimlinin illüziyalarına, nə gözbağlayıcılığına, nə də şoumenliyinə artıq etibar etmir

Uğursuzluqları ilə diqqətdən kənarda qalmayan AXCP sədrinin isə artıq heç bir iblisin, heç bir xarici qüvvənin maliyyəsinə zərrə qədər gümanı qalmayıb. Daha doğrusu, heç bir xarici qüvvə, heç bir maliyyə vəsaiti təminatçısı artıq nə Kərimlinin illüziyalarına, nə gözbağlayıcılığına, nə də şoumenliyinə etibar etmir və vəsait məsələsi də bu baxımdan qəliz məsələyə çevrilib. Ələlxüsus, 2017-ci ilin oktyabr ayında Soros fondu tərəfindən, seçkilərin texniki məsələlərinin həlli adı altında müxalifətə ayrılmış 1 milyon 200 min manat pulun Qənimət Zahid tərəfindən mənimsənilməsindən sonra xarici qüvvənin maliyyəsinə ümid dəryada balıq sevdasıdır. Q.Zahid Turan televiziyası adlı qondarma televiziyanın yaradılması adı altında partiyaya çatdırılmalı pulu mənimsədiyi üçün Kərimlinin simasında müxalifət vəsaitlərdən məhrum oldu. Belə bir məhrumiyyətdən sonra əli-qolu bağlı radikalların fəaliyyəti də çətinləşdi. Göründüyü kimi, martın 17-nə nəzərdə tutulan mitinq planları da baş tutmadı. Çünki bu mitinqin keçirilməsi üçün sərf olunacaq vəsait, yəni ən azı 100 min manat pul problemə çevrildi.

Ümumiyyətlə, vəsaitlərlə bağlı problemlər hələ bundan sonra müxalifət düşərgəsinin yuxusunu ərşə çəkəcək və siyasi səhnəni tərk etməyə vadar edəcək. Çünki xarici ağalarını maraqlandırmır ki, pullarını Q.Zahid mənimsədi, yoxsa Ə.Kərimli. Əksinə, onları maraqlandıran göndərdikləri vəsaitlərin müqabilində radikalların siyasi aktivliyidir. Amma bunun əksini müşahidə etməkdədirlər. Yəni vəsait çatışmazlığı səbəbindən mitinq, aksiya belə keçirə bilməyən müxalifət düşərgəsi heç seçkilərə də qatılmayacaqsa bir daha maliyyə ayrılmasını yuxularında belə görə bilməyəcəklər. Hətta bu vaxta qədər ayrılan pulların belə hesabatını verə bilməyən müxalifət düşərgəsi ilə xarici qüvvələr, xarici havadarları arasında ciddi konfliktlər yaşanır. Bəlli olur ki, bundan sonra vəsait ayrılmasının mümkünsüzlüyünü inkar etmək olmaz.

### Vətən qarşısında məsuliyyətini və borcunu dərk etməyənlərin AXCP sədrini eşidəcəyinə belə ümid qalmır

Müxalifət düşərgəsinə vəsait ayrılması dayandırılacağı təqdirdə ilk əvvəl Kərimlinin nə xaricdəki söyüş qrupu, nə də daxildəki ara qarışdıranlar dəstəsi müxalifətlə iş birliyinə qatılmayacaq. Vəsaitlərin tükəndiyi və olmadığı səbəbdən hər biri, öz növbəsində, xidmət göstərməkdən imtina edəcək. Nə Orduxan Teymurxan, nə Tural Sadıqlı, ələlxüsus da, şərəfsiz Məhəmməd Mirzəli AXCP sədrinin qara qaşına, qara gözünə aşiq deyil və ancaq maddi vəsait müqabilində onun əmrlərinə tabe olur. Söyüş qrupunun mühacir üzvlərini heç siyasi baxış, əqidə deyilən bir məfhum heç vaxt maraqlandırmayıb və onlar bu sadalananların heç nə demək olduğunu da başa düşmürlər. Onların başa düşdüyü puldur və bu pulun müqabilində heç bir intellekt tələb etməyən küçə söyüşləri ilə tərbiyəsiz davranış sərgiləmək. Vətən qarşısında təmənnasız məsuliyyətini, borcunu dərk etməyən mühacirlərin, maliyyə təminatı olmadan təmənnasız yerə Kərimliyə qulaq asacaqlarına belə AXCP sədrinin zərrə qədər ümidi yoxdur.

Nə xaricdəki mühacir söyüş qrupunun, nə də daxili ara qarışdıranlarının dəstəyinə bundan sonra ümidi qalmayan AXCP və "Milli Şura"nın özünün belə daxildən parçalanmayacağına, dağılmayacağına kimsə də təminat verə bilməz. Maliyyə mənbələrindən, vəsait ayrılmasından məhrumolma hər iki qurumda təmsil olunanların qurumu tərk etməsinə, nəticədə partiyanın da, "şura"nın da dağılmasına gətirib çıxara bilər ki, bu da Ə.Kərimli üçün siyasi intihardan başqa bir şey deyil.

**İnam HACIYEV**

# Müstəqil Azərbaycan: demokratik seçkilər yolunda

***İnzibati məsələlərə və müşahidəçilərin yerləşdirilməsinə görə, məsul əməkdaş maliyyə aspektləri də daxil olmaqla, inzibati məsələlərin həllində DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısına köməklik göstərilməsi, eləcə də, uzunmüddətli (UMM) və qısamüddətli müşahidəçilərin (QMM) yerləşdirilməsi planının tərtibatı üçün təyin edilir. İnzibati məsələlərə və müşahidəçilərin yerləşdirilməsinə görə məsul şəxs də, seçkilərin keçirildiyi yerə və əks-istiqamətdə yola düşərkən Varşavadakı brifinq və dibrifinqdə iştirak etməlidir.***

DTİHB, eyni zamanda, nümayəndə heyətinin əməkdaşları kimi yerlərdə seçkiləri müşahidə edənlərin işi ilə əlaqədar xüsusi məsələlərə dair aşağıdakı ekspertləri təyin edə bilər:

*kütləvi informasiya vasitələri məsələlərinin eksperti - DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısına kütləvi intformasiya vasitələri sahəsində qanunvericiliyə, eləcə də, seçkilərlə əlaqədar kütləvi informasiya vasitələrinin digər aspektlərinə dair məsləhət vermək üçün. Bəzi hallarda bu sahədə peşəkar məsləhətlər verə biləcək məsləhətçilər qrupunun olması arzuediləndir;

* hüquqşünas - seçki qanunvericiliyi də daxil olmaqla, qanunvericilik məsələlərinə və seçkinin gündəlik sənədlərinə dair hüquqi məsləhətlər vermək üçün;

* seçki məsələləri üzrə ekspert -seçki prosesini və onun ayrı-ayrı aspektlərini qiymətləndirmək üçün; seçkilərin keçirilməsinə görə məsuliyyət daşıyan hakimiyyət orqanları ilə, xüsusən də, milli seçki idarəsi və əsas siyasi namizədlərin kampaniyalarının təşkilalçıları ilə əlaqə yaratmaq üçün;

* maliyyə məsələlərinə görə məsul şəxs - DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyətinin başçısına, inzibati məsələlərə və müşahidəçilərin yerləşdirilməsinə görə məsul şəxsə seçkiləri müşahidə edən nümayəndələrin işinin maliyyələşdirilməsi ilə əlaqədar bütün məsələlərdə kömək göstərmək üçün;

*statistika məsələləri ilə bağlı ekspert - müşahidəçilərin hesabatlarının tərtibatı və həmin hesabatların təhlili ilə əlaqədar məsləhət verilməsi üçün;

* parlamentin üzvləri ilə işə görə məsul şəxs - seçkiləri müşahidə edən parlamentin nümayəndələrilə, xüsusən də, ehtiyac olduqda ATƏT PA-nın Beynəlxalq Katibliyinin təyin olunmuş işçilərilə əlaqə saxlamaq üçün.

Seçkiləri müşahidə bir gün çərçivəsinə sığmır. Seçki prosesi foto-şəkil kimi deyil, film kimi nəzərdən keçirilməlidir. Müşahidəçilər seçicilərin qeydiyyatından, kampaniyaların başlanğıcından tutmuş səsverməyə, səslərin hesablanmasına, təkrar yoxlanmasına, şikayətlərə baxılmasına və mübahisəli məsələlərin həllindəki seçki silsiləsinin müxtəlif mərhələlərini diqqət mərkəzində saxlamalıdırlar. DTİHB-nin uzunmüddətli müşahidəyə dair öhdəliyini yerinə yetirmək üçün UMM əsas qrupunun ayrılması barədə sorğu seçkilərə təxminən iki ay qalmış iştirakçı dövlətlərə göndərilir.

Seçkilər ərəfəsində seçki idarəsinin işinin səmərəliliyi və qərəzsizliyi, seçkilərə aid qanun və qaydaların yerinə yetirilməsi kampaniyaların mahiyyəti və seçkilər qarşısında siyasi vəziyyət barədə, bilavasitə informasiya alınmasında uzunmüddətli müşahidəçilərin rolu böyük əhəmiyyət kəsb edir. UMM seçkiqabağı dövrün monitorinqinə görə məsuliyyət daşıyır, bu minvalla da seçkilər günü bütün seçki prosesi barədə informasiyaya malik olmaqda qısamüddətli müşahidəçilərə (QMM) kömək edir.

UMM, seçicilərin təlim mərhələsi və qeydiyyatı da daxil olmaqla, seçkilərin hər bir mərhələsində qanunun, yaxud prosesin istənilən şəkildə pozulmasını müşahidə etməlidir. Xüsusən, UMM azlıqlara və qadınlara münasibətdə onların seçicilərin təlim proqramından çıxarılması, yaxud məhdudlaşdırılması və seçki orqanlarında kifayət qədər təmsil olunmaması kimi mümkün ayrı-seçkilik hallarını müşahidə etməlidir.

UMM təyin olunan gündə DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının keçirdiyi brifinqdə iştirak etməyə hazır olmalıdır. Brifinq aşağıdakı məsələləri işıqlandırmalıdır:

* ATƏT təsisatlarının və xüsusilə də, DTİHB-nin rolu;

* müşahidəçilərin davranış məcəlləsi və seçki prosesinin müşahidə metodologiyası da daxil olmaqla, seçkiləri müşahidə sahəsində DTİHB rəhbər sənədinin icmalı;

* xüsusi müşahidənin fəlsəfəsi və metodunu izah etmək;

* seçki qanunvcriciliyi və qaydalarını qiymətləndirmək;

* təhlükəsizlik məsələlərini nəzərdən keçirmək;

* mətbuatın bəyanatına necə reaksiya verməyi izah etmək.

UMM təlimat aldıqdan sonra ölkənin bütün ərazilərindəki seçki məntəqələrinə, bir qayda olaraq, iki nəfərdən ibarət qrup şəklində bölüşdürülür. UMM özünün qiymətinə və müşahidələrinə əsaslanan vaxtaşırı hesabat təqdim etməlidir. Həmin hesabatlar QMM-in hazırlığı üçün istifadə olunur və yekun hesabatının tərkib hissəsidir. UMM, həmçinin, bütün müşahidə dövrü ərzində DTİHB-nin seçkiləri müşahidə edən nümayəndə heyəti başçısının keçirə biləcəyi iclaslarda da vaxtaşırı iştirak etməlidir.

UMM seçki prosesinə heç cür müdaxilə etmədən regional, yerli seçicilərlə, hakimiyyət orqanlarıyla, siyasi partiyalarla, qeyri-hökumət təşkilatlarıyla (istənilən yerli müşahidəçilər və insan hüquqlarına dair qruplar da daxil olmaqla), digər mülki təşkilatlarla, kütləvi informasiya vasitələri və milli azlıqlarla (ehtiyac olduqda) əlaqə saxlamalıdır.

UMM seçkiqabağı dövrün aşağıdakı aspektlərini müşahidə etməlidir:

1) Seçki idarəsi

* milli seçki idarəsinin tərkibi, insan ehtiyatları və onların hazırlaşdırılması, maddi ehtiyatlar;

* seçicilərin təlimi və mülki təlim;

* seçicilərin identifikasiyası və qeydiyyatı;

* namizədlərin və siyasi partiyaların qeydiyyatı;

* seçki dairələrinin sərhədləri;

* bülletenlərin tərtib olunması, onların təhlükəsizliyi;

* səsvermənin xüsusi hallarına dair qaydalar;

* səslərin hesablanması, nəticələrin cəmlənməsi və dəqiqləşdirmə prosesi;

* yenidənbaxılma prosesi və şikayətlərin verilməsi.

2) Seçki kampaniyası

* siyasi kampaniya;

* kampaniyanın aparılması üçün ehtiyatlar;

* kütləvi informasiya vasitələri;

* təhlükəsizlik qüvvələrinin davranışı.

Mərkəzi Seçki Komissiyası (MSK) və ya buna bənzər milli seçki idarəsi, adətən, seçkilərin təşkili və keçlrılməsi üçün təyin edilir. Bəzən seçki prosesi ilə məhkəmə orqanları məşğul olurlar. Seçkilərin keçirilməsinə görə hansı təşkilatın məsuliyyət daşımasından asılı olmayaraq, onun işi müstəqil, maneəsiz və açıq olmalıdır.

Seçkiləri keçirən təşkilat müstəqil və siyasi təfriqələrdən müdafiəli olmalıdır. Bu təşkilatın tərkibinə tanınmış, hörmətli, bitərəf və təcrübəli şəxsiyyətlər daxil edilərsə, onun müstəqilliyinə nail olunar. Həmin təşkilat seçki qanunlarını kimsənin onun vəzifələrinə müdaxilə etmədən və məcburiyyətsiz yerinə yetirməlidir.

Alternativ seçki idarəsi siyasi partiyaların vəkil etdiyi nümayəndələrin balansına əsaslana bilər. Dəqiq ifadə olunmuş partiya nümayəndəliyinin balansı, seçki idarəsinin bütün səviyyələrində çoxpartiyalı bərabər təmsilçiliklə təmin edilən ehtiyat tədbirlər sisteminin yaradılmasına yönəlib. Seçki komissiyasının tərkibinə daxil olan siyasi partiyaların nümayəndələri seçki kampaniyasında iştirak edə bilməzlər. Siyasi partiyalar seçki orqanlarının ünvanına qərar qəbul etdikdə, öz nümayəndələrini komissiyanın tərkibindən geri çağırmalıdırlar.

İdarənin daimi təşkilata çevrilməsi, yaxud daimi icraçı orqanlarının olması arzuedilən haldır. Əgər bu müvəqqəti təşkilatdırsa, onun müstəqilliyi o zaman təmin edilə bilər ki, üzvləri müəyyən müddətə təyin edilir və onlar özlərinin əsas iş yerlərinə qayıtmaq imkanına malik olurlar.

Əgər seçkilərin təşkilinə və keçirilməsinə görə məhkəmə orqanları məsuliyyət daşıyırsa, onların müstəqilliyi açıq prosedurlar vasitəsilə təmin edilir. Məhkəməni təmsil edənlər hakimiyyətdən, yaxud dövlət vəzifələrinə namizədlərdən asılı olmamalıdırlar.

İdarənin qərəzsiz olması zəruridir. Seçki idarəsi özünümüdafiə, assosiasiya, iclas azadlığı hüququnun həyata keçirilməsinə, ayrı-seçkilikdən imtina olunmasına kömək və qanunun vaxtında yerinə yetirilməsinə nəzarət etməlidir. Hər cür tərəfbazlıq və hakimiyyətdən yanlış istifadə seçkilərin legitimliyinə ciddi ziyan vura bilər.

Seçki idarəsinin aşkarlığı seçki komissiyasının açıq iclaslarının keçirilməsi, eləcə də, bunların müvafiq şəkildə protokollaşdırılması yolu ilə xeyli yaxşılaşdırıla bilər. Bu, ictimaiyyətin seçki sisteminə etimadının yüksəldilməsinə kömək edərdi.

Müxtəlif nazirliklər, digər mərkəzi-inzibati orqanlar, yaxud rayon hakimiyyətinin nümayəndəlikləri, yerli şuralar və şəhər hakimiyyəti də seçkilərin təşkilində və keçirilməsində inzibati-təşkilati məsələləri yerinə yetirmək üçün milli seçki idarəsinin dəstəklənməsinə yönəldilə bilərlər. Onlar seçicilərin siyahılarının, bülletenlərin, səsvermə qutularının və kabinələrin rəsmi möhürlərinin, digər lazımi materialların hazırlanmasına və yayılmasına, eləcə də, onların saxlanmasına, yayılmasına və təhlükəsizliyinə görə məsuliyyət daşıya bilərlər. Müşahidəçilərə müvafiq nazirliklər və yerli hakimiyyət orqanlarının seçki prosesinin təşkilindəki rolu barədə məlumat verilməlidir.

**İnsan ehtiyatları və onların hazırlığı**

Seçkilərin həyata keçirilməsi üçün müvafiq insan ehtiyatı və xüsusi vərdişlər zəruridir.

UMM seçki komissiyasının əməkdaşlarına hansı təlimat verildiyini qiymətləndirməli və həmin əməkdaşların seçkilər günü həyata keçirməli olduqları vəzifələri bilib-bilməməsini müəyyənləşdirməlidir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 22 mart

## “Nar”-dan sosial mediada “Novruz çarxı” kampaniyası




“Nar” operatoru Novruz bayramında daha bir kampaniyaya start verir. Mobil operatorun Facebook səhifəsində keçirilən kampaniyada iştirak edərək çarxda bəxtlərinə düşən bonusların skrinşotunu müvafiq postun şərhlərində bölüşən “Nar” istifadəçiləri bayramdan sonra paylaşdıqları bonusları qazanacaqlar.

Bonus növləri aşağıdakı kimidir: 50 MB internet trafiki, 50 şəbəkədaxili danışıq dəqiqəsi, bütün istiqamətlərə 50 SMS. Qeyd edək ki, bonuslar hər abunəçiyə yalnız bir dəfə - əvvəl qazandığı və ilk bölüşdüyü bonusun növünə uyğun şəkildə təqdim ediləcək. Mart ayının 27-dən etibarən təqdim ediləcək bonuslardan istifadə müddəti 30 gündür. Əlavə məlumat “Nar”-ın sosial media səhifələrində təqdim ediləcək. “Nar” tarif və kampaniyaları haqqında ətraflı məlumatı nar.az internet səhifəsində və mobil operatorun sosial media səhifələrində öyrənmək olar. “Azerfon” şirkəti 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir.

## Ən duzsuz çörək Çindədir



Dünya Duz və Sağlamlıq Hərəkatının araşdırmasına görə, bəzi çörəklərin tərkibindəki duzun miqdarı dəniz suyundakı duzun miqdarına yaxındır. AZƏRTAC qurumun rəsmi saytına istinadla xəbər verir ki, Londonun Kraliça Meri Universiteti ilə birgə aparılan tədqiqat zamanı çörəyin tərkibi araşdırılıb. Tədqiqat zamanı 32 ölkədə müxtəlif un növündən hazırlanmış iki mindən çox çörəyin tərkibindəki duzun miqdarı araşdırılıb.

Ölkələr arasında ən yüksək duz miqdarı hər yüz qramında 1,42 qram duz olan Makedoniyanın ağ undan bişirilmiş çörəklərində aşkarlanıb. Ən az duzsuz çörəyə isə Çində rast gəlinib. Belə ki, asiyalıların çörəyinin hər 100 qramına 0,65 qram duz əlavə olunub.

Basmati növündən olan və kəpəkli çörəklərin digərlərinə nisbətən daha duzlu olduğu, qarışıq taxılların isə ən az duz miqdarı ( hər 100 qramında ortalama 1,02 qram) ehtiva etdiyi məlum olub. Ən çox duza isə Kanadada istehsal olunan bir çörək növündə rast gəlinib - hər 100 qramında 2,65 qram duz. Bu miqdar hər 100 qramında 3,5 qram duz olan dəniz suyuna olduqca yaxındır.

Dünya Səhiyyə Təşkilatı günlük duz miqdarının böyüklərdə 5 qramı, 7 yaşından kiçik uşaqlarda isə 2 qramı keçməməsi haqqında xəbərdarlıq edib. Tədqiqatlar çörəyin tərkibindəki duz miqdarının 6 həftə ərzində mərhələli şəkildə 25 faiz azaldılmasına rəğmən, alıcıların fərqi hiss etmədiyini də üzə çıxarıb.

## Gəncədə 58 yaşlı qadın intihar edib

Gəncədə 58 yaşlı qadının boğazı kəsilmiş cəsədi tapıldı. Teleqraf.com xəbər verir ki, şəhərin Nizami küçəsində olan evlərin birində yaşayan 1960-cı il təvəllüdlü Həsənova Firdus Rafiq qızının meyiti evin vanna otağında boğaz nahiyəsindən damarı kəsilmiş vəziyyətdə tapılıb. Onun intihar məqsədi ilə damarını kəsdiyi bildirilir. Faktla bağlı Gəncə şəhər Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

## Şəhriyar Məmmədyarovdan növbəti heç-heçə



Almaniyanın paytaxtı Berlində keçirilən şahmat üzrə İddiaçılar turnirində bu gün IX turun görüşləri olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov qara fiqurlarla ermənistanlı Levon Aronyanla qarşılaşıb. Tərəflər 41-ci gedişdə heç-heçəyə razılaşıblar.

Bununla da, Məmmədyarov turnirdə 7-ci heç-heçəsini əldə edib. Onun aktivində 2 qələbə də var. Aronyan isə görüşlərindən 1 qələbə, 3 məğlubiyyət və 5 heç-heçə ilə ayrılıb. İki şahmatçı arasında ilk dövrədəki görüşdə də qalib müəyyənləşməyib - 0,5:0,5.

## “Atletiko” Paulo Dibalanı heyətinə qatmaq istəyir



İtaliyanın “Yuventus” futbol klubunun hücumçusu Paulo Dibala “Atletiko Madrid”ə keçə bilər. AZƏRTAC xarici KİV-lərə istinadən xəbər verir ki, Madrid klubu Antonie Qrizmanın “Barselona”ya satışından əldə etdiyi bütün gəlirləri argentinalı oyunçunu almağa sərf edəcək.

Qeyd edək ki, A.Qrizmanın transferinin yayda gerçəkləşəcəyi gözlənilir. Artıq P.Dibala “Atletiko”nun baş məşqçisi Dieqo Simeone ilə görüşündə mümkün ola biləcək müqavilə barəsində müzakirə aparıb.

## Raul Qonzales məşqçiliyə başlayacaq




İspaniyanın əfsanəvi futbolçusu Raul Qonzales məşqçilik fəaliyyətinə başlayacaq. Belə ki, peşəkar futbol karyerasını 2015-ci ildə bitirən Raul məşqçilik diplomu alaraq cari ilin aprelində “Real Madrid”in U-18 komandasının baş məşqçisi vəzifəsinə təyin olunacaq. Qeyd edək ki. R.Qonzales 1994-2010-cu illərdə “Real Madrid” heyətində forma geyinib.

## Neymar Luis Enrikeni PSJ-nin baş məşqçisi görmək istəyir



PSJ-nin futbolçusu Neymar komandanın yeni baş məşqçi vəzifəsinə “Barselona”nın sabiq çalışdırıcısı Luis Enrikenin gətirilməsini istəyir. Qol.az-ın Fransa mətbuatına istinadən yaydığı xəbərə görə, bununla bağlı fikrini braziliyalı hücumçu klub prezidenti Nasser Əl-Xəlafiyə bildirib. PSJ-nin Neymarın bu istəyini yerinə yetirməyi düşündüyü vurğulanıb.

## “Real” bu qapıçıya görə 60 milyon avro ödəməyə razıdır



“Real” “Roma”nın qapıçısı Alissonu transfer etmək istəyir. “Corriere dello Sport”un yazdığına görə görə, Madrid klubu 25 yaşlı qapıçı üçün 60 milyon avro ödəməyə razıdır. “Real” futbolçunun özü ilə 5 illik müqavilə imzalamağı planlaşdırır. Keçid baş tutarsa, Alisson yeni klubunda ildə təxminən 5 milyon avro maaş alacaq. Qeyd edək ki, “Roma”nın heyətində saxlamaq istədiyi braziliyalı qolkiperi “Liverpul” da transfer etmək istəyir.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500